AZƏRBAYCAN XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ

DƏNİZ

QƏZET 1931-ci ildən nəşr olunur

15 iyul 2016-cı il № 41-44 (9047) Qiyməti 50 qəpik

BU SAYIMIZDA

Gəmiçiliyin rəhbərliyi yaxın dövrdə korporativ idarəetmə üzrə müvafiq reytinqin alınmasını planlaşdırır

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC yaradıldığı vaxtdan qarşısında qoyulmuş əsas hədəflərdən biri beynəlxalq standartlara uyğun idarəetmə sisteminin yaradılması və inkişaf etdirilməsidir. Bu məqsədlə Gəmiçilikdə ardıcıl tədbirlər həyata keçirilir. Korporativ idarəetmə - bütün risklər nəzərə alınmaqla, şirkətin öz hədəflərinə biznes etikası normalarına riayət olunmaqla çatmaq üçün tətbiq etdiyi sistemdir.

Səh. 2

GƏNCLƏRƏ QAYĞI GƏMİÇİLİYİN PERSPEKTİVLİ, BİLİKLİ KADRLARLA TƏMİNATINDA ƏHƏMİYYƏTLİ ROL OYNAYACAQ

Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin rəhbərliyi Dəniz Akademiyasının təhsildə uğurlu nəticələri ilə fərqlənən məzunlarının işlə təmin olunmasına, karyera inkişafına, əlavə təhsil almasına, habelə sosial müdafiəsinin gücləndirilməsinə daim xüsusi diqqət yetirir. Regionda dənizçilik sahəsində yeganə ali təhsil müəssisəsi olan Azərbaycan Dövlət Dəniz Akademiyasında tələbələrin savadlı mütəxəssis kimi yetişməsi Gəmiçiliyin perspektivli, bilikli kadrlarla təminatında əhəmiyyətli rol oynayır.

Səh. 3

BAKI–TBİLİSİ–CEYHAN ƏSAS İXRAC NEFT BORU KƏMƏRİNİN İSTİFADƏYƏ VERİLMƏSİNDƏN 10 İL ÖTÜR

Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft boru kəmərinin – BTC çəkilməsi ilə reallaşan və ulu öndər Heydər Əliyevin bir neçə onilliklər üçün hesablanan neft strategiyasının həlli və uğurla davam etdirilməsinin nəticəsidir ki, bu gün Azərbaycan dünya birliyində siyasi, iqtisadi inkişafı, qlobal hadisələrə təsir imkanları artan qüdrətli dövlət kimi tanınır, qəbul olunur.

Səh. 4

Körpünün və dəmir yolu xəttinin tikintisinin 2016-cı ilin sonunadək yekunlaşdırılması planlaşdırılır

Astara çayı üzərində tikiləcək dəmir yolu körpüsünün aşırımında 24 ədəd 32 metr dərinliyində özül qoyulub, iki aşırımın dayağı tikilib.

Astara stansiyasından İran İslam Respublikası dövlət sərhədinə qədər birxətli 8,3 kilometr uzunluğunda dəmir yolu xəttinin 7 kilometrində torpaq yatağının işlənməsi başa çatdırılıb. Relyefi mürəkkəb olan əraziyə 100-ə yaxın texnika cəlb olunub. Bu günə kimi 280 min kubmetr qum, qaya daşı, çınqıl və köhnə dəmir-beton məmulatı döşənib.

Səh. 5

PORTUQALİYA TARİXDƏ İLK DƏFƏ AVROPA ÇEMPİONU ADINI QAZANIB

İyunun 10-da futbol üzrə XV Avropa çempionatının final görüşü keçirilib.

Parisin Sen-Deni rayonunun "Stade de Frans" stadionunda keçirilən Portuqaliya-Fransa matçından əvvəl möhtəşəm şou nümayiş etdirilib.

Daha sonra final görüşü start götürüb.

Portuqaliyanın start heyətində Rui Patrisio, Sedrik, Pepe, Fonte, Qerrero, Renato Sançes, Adrien Silva, Uilyam Karvalyo, Joao Mari, Ronaldo və Nani meydana çıxıb.

Səh. 8

Ermənistanın yalanları artıq heç kimə təsir göstərmir. Onlar diaspor imkanlarından və bizim beynəlxalq səviyyədə o qədər də çıxışımızın olmamasından istifadə edərək münaqişə ilə bağlı yalan məlumatlar yayırdılar. İndi artıq o dövr arxada qalıb. Həqiqət ondan ibarətdir ki, Azərbaycan haqlıdır və beynəlxalq hüququn normaları bu münaqişə ilə bağlı tam şəkildə tətbiq edilməlidir.

Münaqişənin həlli ilə bağlı bir məsələni də qeyd etmək istəyirəm ki, bu il, xüsusilə son üç-dörd ay ərzində danışıqlar prosesində bəlkə də tarixdə görünməyən fəallıq müşahidə olunur. Aprel hadisələrindən sonra may ayında Amerika Birləşmiş Ştatlarının təşəbbüsü ilə Vyanada görüş keçirilmişdir. Düzdür, Ermənistan tərəfi görüşün keçirilməsi üçün bir neçə şərt irəli sürmüşdür. Bu şərtləri irəli sürərək özlərini bir daha gülünc vəziyyətə qoymuşdular. Çünki yaxşı bilirdilər ki, Azərbaycan heç bir şərtlə razılaşmayacaq. Danışıqlar prosesi bizə də, onlara da lazımdır. Aprel hadisələri bunu bir daha göstərib. Əgər danışıqlar prosesi pozularsa və Ermənistan yenə də öz təxribatçı fəaliyyətini davam etdirərsə, vəziyyət dəyişə bilər.

Beləliklə, may ayında keçirilmiş görüşə Azərbaycan heç bir şərt qəbul etmədən qatılıb və öz mövqeyini ifadə edib. May görüşündə Azərbaycan tərəfindən hər hansı bir sənəd, yaxud da ki, bəyanat nə imzalanıb, nə də qəbul edilib. Həmsədr ölkələr bəyanat qəbul ediblər, amma o bəyanat onların daxili işidir. İyun ayında Rusiya tərəfinin təşəbbüsü, Prezident Putinin dəvəti ilə Sankt-Peterburqda görüş keçirilmişdir. O görüş də çox müsbət keçmişdir və müəyyən ümidlər yaratmışdır. Məhz buna görə görüşün nəticəsində birgə bəyanat qəbul edilmişdir. Bu bəyanat mətbuatda dərc edilib. Hesab edirəm ki, Azərbaycan dövlətinin mövqeyi o bəyanatda kifayət qədər geniş yer alıbdır.

….Fransa da həmsədr ölkə kimi münaqişənin həlli üçün çalışır. Biz əslində Minsk qrupunun fəallığını müşahidə edirik. Həm Amerika, həm Rusiya, indi də Fransa Prezidenti bu məsələ ilə çox ciddi məşğuldurlar. Danışıqlar indi fəal mərhələyə keçməlidir və Ermənistan konstruktiv mövqe nümayiş etdirməlidir. Yəni, artıq məsələnin mərhələli yollarla həlli bütün həmsədr dövlətlər tərəfindən, ATƏT tərəfindən qəbul edilir. Biz həmişə demişik və deyirik, bunun başqa yolu yoxdur. Məsələ mərhələli yolla həll edilməlidir. Azərbaycanın ərazi bütövlüyü təmin edilməlidir. İkinci erməni dövləti yaradıla bilməz. Dağlıq Qarabağa heç vaxt müstəqillik verilə bilməz. Bunu artıq beynəlxalq ictimaiyyət qəbul edir. Əvvəlki dövrlərdə biz başqa fikirlər eşidirdik. Əfsuslar olsun ki, əvvəlki dövrlərdə bəzi hallarda beynəlxalq hüquq, BMT-nin qətnamələri kənarda qalırdı və Dağlıq Qarabağın gələcəyi ilə bağlı həqiqətə, o cümlədən tarixi həqiqətə uyğun olmayan müxtəlif təkliflər irəli sürülürdü. Bütün bunlar artıq keçmişdə qaldı. Məsələnin mərhələli yollarla həlli yeganə mümkün variantdır. Əgər bu variant reallaşarsa, onda həm torpaqlarımız işğalçılardan azad ediləcək, eyni zamanda, Dağlıq Qarabağın erməni əhalisi və mütləq oraya qayıdacaq azərbaycanlılar sülh, təhlükəsizlik şəraitində yaşayacaqlar. Bunun başqa həlli yolu yoxdur.

Qeyd etməliyəm ki, son 3-4 ay ərzində danışıqlarda çox böyük fəallıq müşahidə edilir. Təbiidir, Ermənistan indi hər vəchlə çalışacaq ki, danışıqlar prosesinə yenə də zərbə vursun. Yenə də çalışacaq ki, vaxtı uzatsın. İstisna edilmir ki, təmas xəttində növbəti təxribata əl atmaqla danışıqları pozsun. Necə ki, 2014-cü ildə Parisdə Prezident Ollandın təşəbbüsü ilə keçirilmiş çox müsbət danışıqlardan sonra bir həftə keçməmiş Ağdam rayonunda onlar genişmiqyaslı hərbi təlimlər keçirmişdilər. Bu, sırf təxribat idi və bunu indi hamı bilir, beynəlxalq ictimaiyyət də bilir. Bunu bəyan etməsələr də bilirlər. Həmin təxribat zamanı mövqelərimizə qəsdən hücum çəkmişlər ki, biz o helikopteri vuraq və ondan sonra bizi təcavüzkarlıqda ittiham etsinlər, danışıqlar pozulsun və pozuldu da. 2015-ci il danışıqlar prosesi üçün itirilmiş il olmuşdur. Sadəcə olaraq, Minsk qrupu dekabr ayında görüntü naminə İsveçrədə formal görüş keçirmişdir. O görüşdən sonra görünür Ermənistan tərəfi görüb ki, bu proses fəallaşa bilər və aprel ayında növbəti təxribat törətmişdir. Ona görə məsələ ilə məşğul olan böyük dövlətlər bütün bu reallıqları bilməlidirlər. Əslində, bilirlər. Mən ikitərəfli formatda Azərbaycanın mövqeyini, real məsələnin bu tarixini və münaqişənin səbəblərini açıqlamışam. Ona görə hesab edirəm ki, indiki dövrdə yaxşı imkanlar yaranıb. Ümid edirəm ki, bu proses müsbət nəticələrə gətirib çıxaracaq.

Bununla bərabər, təbii ki, biz hərbi potensialımızı gücləndiririk və gücləndirəcəyik. Aprel döyüşləri bir daha onu göstərib ki, biz düzgün siyasət aparırdıq və aparırıq. Bu gün hər kəs görür ki, Azərbaycan Ordusu həm texniki təchizat, həm döyüş qabiliyyəti baxımından dünya miqyasında güclü ordular sırasındadır. Bu gün Azərbaycan Ordusu istənilən hərbi vəzifəni icra edə bilər. Biz sadəcə olaraq hələ də ümid edirik ki, bu münaqişə sülh yolu ilə həll oluna bilər və ümidlərimiz bir qədər artıb. İndi əsas məsələ bundan ibarətdir - həmsədr ölkələr və ATƏT Ermənistana ciddi təzyiq göstərməlidir ki, onlar təklif olunan məsələ ilə bağlı müsbət cavab versinlər.

Hərbi potensialımızın gücləndirilməsi prioritet olaraq qalacaq. Aprel hadisələrindən sonra çox ciddi əlavə tədbirlər görülüb. Bizim döyüş qabiliyyətimiz böyük dərəcədə artıb, daha da artacaq. Biz ən müasir texnika, silah-sursat alırıq. Əlbəttə ki, bu, bizim gücümüzü artırır və danışıqlar prosesində mövqelərimizi gücləndirir. Ona görə artıq uzun illər ərzində apardığımız siyasət öz səmərəliliyini təsdiq etdi. Bundan sonra hərbi potensialımızın gücləndirilməsi, ordu quruculuğu prosesi daha da sürətlə getməlidir. Həm yerli istehsal daha da artmalıdır və artacaq, - bu gün artıq Azərbaycanın çox güclü hərbi sənayesi vardır, - həm də ən qabaqcıl texnologiyaya malik olan silahlar alınır və alınacaq.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
(İyulun 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasındakı nitqindən)

DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN HƏLLİ İLƏ BAĞLI FAYDALI MÜZAKİRƏLƏR APARILIB

Rusiyanın xarici işlər naziri Sergey Lavrov iyulun 12-də azərbaycanlı həmkarı Elmar Məmmədyarov ilə görüşdən sonra keçirilən birgə mətbuat konfransında ölkəmizə səfəri zamanı Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı faydalı müzakirələrin aparıldığını bildirib. O, hazırkı müzakirələrin prezidentlərin görüşü zamanı əldə edilmiş razılaşmaların həyata keçirilməsi istiqamətində vacib addım olduğunu qeyd edib.

Sergey Lavrov Rusiya ilə münasibətlərin bütün sahələrdə inkişafına verdiyi töhfəyə görə Azərbaycan rəhbərliyinə təşəkkürünü bildirib. O deyib ki, müzakirələrdə ticari-iqtisadi münasibətlərin inkişafına təkan verilməsinin vacibliyi qeyd edilib. Hər iki ölkənin Xarici İşlər nazirlikləri də bu səylərə dəstək verəcək. Həmçinin Şimal-Cənub dəhlizi ilə bağlı məsələ də müzakirə olundu. Bununla bağlı yaxın vaxtlarda prezidentlərin üçtərəfli görüşü baş tutacaq.

Rusiya xarici siyasət idarəsinin rəhbəri Azərbaycana səfərinin ümumilikdə məhsuldar olduğunu vurğulayıb.

Elmar Məmmədyarov hazırda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı intensiv dialoqun aparıldığını söyləyib. "Sergey Lavrovun bizimlə bölüşdüyü informasiya bizi ümidləndirir. İndi intensiv dialoq aparırıq. Əvvəlki görüşlərin hamısı bu münaqişənin həllində irəliləyişə nail olmaq üçün idi. Həll məsələsində maneələri mərhələlərlə aradan qaldırmalıyıq", - deyə Elmar Məmmədyarov bildirib. O, Ermənistan tərəfindən Azərbaycan torpaqlarının işğalının davam etməsi faktının bütün region üçün böyük təhlükə yaratdığını vurğulayıb.

MİNNƏTDARLIQ

Yüksək etimadı əməli işimizlə doğruldacağıq

Möhtərəm Prezidentimiz İlham Əliyevin dənizçilərin peşə bayramı ərəfəsində - 2016-cı il iyunun 24-də imzaladığı Sərəncamlar bizim bayram sevincimizə hədsiz sevinc qatdı. Dəniz nəqliyyatında səmərəli əmək fəaliyyətlərinə görə 15 nəfər "Tərəqqi" medalı ilə təltif edildi, 2 nəfər "Əməkdar mühəndis" fəxri adına layiq görüldü, 4 nəfərə isə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verildi.

O gündən mənim də sevincim köksümə sığmır. Axı, "Tərəqqi" medalı ilə təltif olunanlardan biri də mənəm.

Bu yüksək təltifə görə, dəniz nəqliyyatı işçilərinə diqqət və qayğısını heç vaxt əsirgəməyən möhtərəm Prezidentimizə, təqdimata görə isə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri Rauf Vəliyevə minnətdaram.

Yüksək mükafat sevinclə yanaşı, həm də böyük məsuliyyət deməkdir. Sözümün canı budur ki, göstərilən yüksək etimadı əməli işimizlə layiqincə doğrultmaq üçün bundan sonra daha yaxşı işləməliyik.

Ağalar BEHBUDOV,
DND-nin Əməyin mühafizəsi, təhlükəsizlik texnikası və ekologiya şöbəsinin rəisi

Əməyimizin yüksək qiymətləndirilməsi bizi daha yaxşı işləməyə ruhlandırır

Hələ də möhtərəm Prezidentimiz İlham Əliyevin "Dənizçi günü" ərəfəsində imzaladığı Sərəncamların yaratdığı xoş ovqatla yaşayırıq.

Dövlət başçısının 24 iyun 2016-cı il tarixli Sərəncamları ilə dəniz nəqliyyatında səmərəli əmək fəaliyyətlərinə görə 15 nəfərin "Tərəqqi" medalı ilə təltif olunması, 2 nəfərin "Əməkdar mühəndis" fəxri adına layiq görülməsi, 4 nəfərə isə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi bütün dəniz nəqliyyatı işçilərinin peşə bayramı sevincinə sevinc qatdı.

Bu yüksək təltifə görə, dəniz nəqliyyatı işçilərinə diqqət və qayğısını heç vaxt əsirgəməyən möhtərəm Prezidentimizə minnətdaram. Təqdimata görə isə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri Rauf Vəliyevə "Çox sağ olun!" deyirəm.

Əməyimizin yüksək qiymətləndirilməsi bütün təltif olunanlar kimi, mənə də qol-qanad verib. Çalışacağam ki, yüksək etimadı layiqincə doğruldum.

Nazim RƏSULOV,
"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin mexanika və energetika üzrə baş mütəxəssisi

GƏMİÇİLİYİN RƏHBƏRLİYİ YAXIN DÖVRDƏ KORPORATİV İDARƏETMƏ ÜZRƏ MÜVAFİQ REYTİNQİN ALINMASINI PLANLAŞDIRIR



"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC yaradıldığı vaxtdan qarşısında qoyulmuş əsas hədəflərdən biri beynəlxalq standartlara uyğun idarəetmə sisteminin yaradılması və inkişaf etdirilməsidir. Bu məqsədlə Gəmiçilikdə ardıcıl tədbirlər həyata keçirilir. Korporativ idarəetmə - bütün risklər nəzərə alınmaqla, şirkətin öz hədəflərinə biznes etikası normalarına riayət olunmaqla çatmaq üçün tətbiq etdiyi sistemdir.

Növbəti addım bu sistemin beynəlxalq normalara uyğunluq dərəcəsinin müəyyənləşdirilməsi ilə bağlıdır. Bunun üçün "Ernst & Young" şirkəti ilə AXDG arasında korporativ idarəetmənin qiymətləndirilməsi layihəsi üzrə müqavilə imzalanıb. Layihə çərçivəsində "Ernst & Young" şirkətinin məsləhətçiləri tərəfindən korporativ idarəetmənin mövcud vəziyyəti təhlil olunur, bu sahədə artıq tətbiq edilmiş bütün zəruri sənədlər toplusu nəzərdən keçirilir, Gəmiçiliyin rəhbər işçiləri və aparıcı mütəxəssisləri ilə təlim və müsahibələr aparılır. Nəticədə korporativ idarəetmənin daha da təkmilləşdirilməsi üçün təkliflər və yol xəritəsi hazırlanacaq.

Gəmiçiliyin rəhbərliyi yaxın dövrdə korporativ idarəetmə üzrə müvafiq reytinqin alınmasını da planlaşdırır.

GƏMİÇİLİYƏ ABS AKADEMİYASININ SERTİFİKATI TƏQDİM OLUNDU

Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin beynəlxalq miqyasda tanınmış şirkətlərlə əməkdaşlığı inkişaf etməkdədir. Bu sırada dünyanın ən nüfuzlu təsnifat cəmiyyətlərindən sayılan Amerika Gəmiçilik Bürosu (ABS) ilə iş birliyini xüsusi qeyd etmək olar.

Təsadüfi deyil ki, ABS şirkəti Gəmiçiliyə İSO-9001, İSO-14001, OHSAS-18001 və İSO-50001 üzrə 5 illik sertifikatlar verib. ABS Akademiyası isə işçilərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi və fəaliyyətin beynəlxalq tələblərə uyğun qurulması məqsədilə mütəmadi treninqlər təşkil edir.

Belə qarşılıqlı faydalı əməkdaşlığın davamı iyulun 12-də Gəmiçilikdə keçirilmiş görüşdə diqqət mərkəzində olub.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri Rauf Vəliyev respublikamızda səfərdə olan Amerika Gəmiçilik Bürosu Avropa Divizionunun şərq regionu üzrə vitse-prezidenti Vassilios Kroustallis və ABS-in Xəzər regionu və Rusiya Federasiyası üzrə bölgə meneceri Bişvadeep Banerjee ilə görüşüb.

Vassilios Kroustallis Bakıya səfərinin məqsədlərindən danışaraq, burada həyata keçirilən layihələrə toxunub, Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi ilə əməkdaşlığı yüksək qiymətləndirib. Qonaq ikitərəfli əlaqələrin daha da genişləndirilməsinə tərəfdar olduğunu vurğulayıb və ABS-in dəniz nəqliyyatının müxtəlif sahələrində xidmətlərini təklif edib.

Rauf Vəliyev Gəmiçiliyin fəaliyyət istiqamətləri, görülən işlər və qarşıda duran hədəflər barədə ətraflı söhbət açıb. Bildirib ki, istər donanmaların, istərsə də sahil təşkilatlarının işinin beynəlxalq standartlar səviyyəsində qurulması, mütəxəssislərin peşə hazırlığının artırılması, bunun üçün xarici şirkətlərlə sıx əməkdaşlıq Gəmiçiliyin başlıca önəm verdiyi məsələlərdir. Beynəlxalq miqyasda tanınan Ernst & Young, Fitch Ratings, ABS kimi şirkətlərin təcrübəsi Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi üçün böyük əhəmiyyət kəsb edir.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri Amerika Gəmiçilik Bürosu ilə iş birliyini dəyərləndirərək, ABS Akademiyasının keçirdiyi treninqlərin səmərəsindən razılıq ifadə edib. Tərəflər qarşılıqlı maraq doğuran bir sıra digər məsələlərə də toxunublar. Görüşün sonunda Vassilios Kroustallis Rauf Vəliyevə AXDG-nin gəmi və sahil personalının korporativ təliminə yönəlmiş davamlı səylərinə görə ABS Akademiyasının Sertifikatını təqdim edib.

Vüqar SADIQOV

NEFT DAĞILMALARINA QARŞI HAZIRLIQ VƏ CAVABVERMƏ TƏDBİRLƏRİ ÜZRƏ "DƏYİRMİ MASA" KEÇİRİLİB

İyulun 12-də Fövqəladə Hallar Nazirliyinin (FHN) Xəzər Hövzə Qəza-xilasetmə Xidmətinin təşkilatçılığı ilə "Neft Dağılmalarına Qarşı Hazırlığın Regional Təşəbbüsü" (OSPRI) şirkəti ilə birlikdə neft dağılmalarına qarşı hazırlıq və cavabvermə tədbirləri üzrə "dəyirmi masa" keçirilib.

FHN-dən bildiriblər ki, tədbirin keçirilməsində məqsəd dənizdə mümkün neft dağılmalarına qarşı hazırlığın müzakirəsi və beynəlxalq təcrübənin bölüşülməsi, Aktau Protokolu çərçivəsində regionda əməkdaşlıq imkanlarının müzakirəsindən ibarət olub.

Tədbirdə Fövqəladə Hallar, Ekologiya və Təbii Sərvətlər nazirliklərinin, Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyasının, SOCAR və BP-nin nümayəndələri iştirak ediblər.

FHN-in Xəzər Hövzə Qəza-xilasetmə Xidmətinin rəisi Piri Quluzadə tədbirin mahiyyətindən danışıb, belə görüşlərin keçirilməsinin vacibliyini vurğulayıb. O, deyib ki, bu cür tədbirlərdə qazanılan nəzəri təcrübələr neft sahəsində baş verə biləcək hadisələrin nəticələrinin aradan qaldırılmasında, belə hallara çevik reaksiya verilməsində mühüm rol oynayır.

OSPRI-nin meneceri Peter Taylor iştirakçılara tədbir haqda məlumat verib, təmsil etdiyi qurumun yaranma səbəbi və məqsədlərindən söhbət açıb. Bildirib ki, şirkətin əsas fəaliyyəti neft dağılmalarına qarşı aidiyyəti orqanlar arasında əlaqələndirici funksiyanı yerinə yetirməkdir.

Çıxış edən natiqlər Azərbaycanın neft dağılmalarına qarşı milli tədbirlər sistemi, beynəlxalq və regional əməkdaşlığın imkanları və onların reallaşdırılması, lokal yanğınların neft dağılmasında alət kimi istifadəsi və s. mövzularda ətraflı məlumat veriblər.

"Dəyirmi masa"ya iyulun 13-də yekun vurulub.

Tahir Dadaşov

"Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi ilə bağlı müzakirələr aparılıb

İyulun 2-də Bakıda "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi ilə bağlı müzakirələr aparılıb.

"Azərbaycan Dəmir Yolları" QSC-nin mətbuat katibliyindən bildirilib ki, müzakirələr Azərbaycan, İran və Rusiya dəmiryolçuları arasında keçirilən üçtərəfli görüş zamanı baş tutub.

Görüşdə "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov Azərbaycan Dəmir Yolunda reallaşdırılan layihələr, qarşıda duran perspektiv vəzifələr haqqında ətraflı məlumat verib.

O bildirib ki, "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin tikintisinin reallaşdırılması Azərbaycanın tranzit potensialının artırılmasında, ölkələrimiz arasında əlaqələrin daha da genişləndirilməsində mühüm rol oynayacaq.

Sonra üçtərəfli görüşdə Azərbaycan tərəfinin Astara (Azərbaycan)-Astara (İran) birləşdirici xəttinin tikintisində, İran tərəfinin Qəzvin-Rəşt birləşdirici xəttinin tikintisində gördüyü işlər, Rusiya-Azərbaycan-İran və Rusiya-Azərbaycan-İran-Hindistan marşrutları üzrə və əks istiqamətdə yük daşınma həcminin artırılmasında "Rusiya Dəmir Yolları" ASC-nin iştirakı, Rəşt-Astara (İran)-Astara (Azərbaycan) dəmir yolu xəttinin tikintisinin maliyyələşdirilməsində də "Rusiya Dəmir Yolları" ASC-nin iştirak şərtləri müzakirə olunub.

Tədbirin sonunda müvafiq sənəd imzalanıb.

Qeyd edək ki, "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi haqqında Razılaşma Rusiya Federasiyası, İran İslam Respublikası və Hindistan arasında 2000-ci il sentyabrın 12-də Sankt-Peterburq şəhərində bağlanıb. Razılaşma daxili prosedurlardan keçdikdən sonra 2002-ci il mayın 21-də qüvvəyə minib. 2005-ci ilin sentyabr ayında Azərbaycan Respublikasının Qanunu ilə ölkəmiz "Şimal-Cənub Beynəlxalq nəqliyyat dəhlizi haqqında Saziş"ə qoşulub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2015-ci il dekabrın 7-də "Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin Azərbaycan Respublikasının ərazisindən keçən hissəsində işlərin sürətləndirilməsi haqqında" Sərəncam imzalayıb. Həmin Sərəncama uyğun olaraq, 2016-cı il aprelin 20-də Azərbaycan Respublikası ilə İran İslam Respublikasının dövlət sərhədində, Astara çayı üzərində 82,5 metr uzunluğunda dəmir yolu körpüsünün təməli qoyulub, 2016-cı il martın 1-dən isə Astara stansiyasından İran İslam Respublikası dövlət sərhədinə qədər birxətli 8,3 kilometr uzunluğunda yeni dəmir yolu xəttinin tikintisinə start verilib.

Həm körpünün, həm də dəmir yolu xəttinin tikintisinin 2016-cı ilin sonunadək yekunlaşdırılması planlaşdırılır.

Ukrayna Baş nazirinin müavini nəqliyyat infrastrukturu ilə bağlı məsələlərin həlli yollarını təklif edib

Ölkələrimiz arasında əmtəə dövriyyəsinin inkişafına heç bir maneə yoxdur. Bu sözləri Azərbaycanda rəsmi səfərdə olarkən Ukrayna Baş nazirinin müavini, regional inkişaf, tikinti və mənzil-kommunal təsərrüfatı naziri Gennadi Zubko jurnalistlərə müsahibəsində deyib.

Ukrayna nazirinin sözlərinə görə, nəqliyyat infrastrukturu ilə bağlı məsələlər ölkələrimizin potensialı nəzərə alınaraq həll edilməlidir. G.Zubko İpək Yolunun bərpasını, habelə Azərbaycan neftinin Ukrayna ərazisi ilə Avropaya daşınması, Ukraynada qaz mənbələrinin şaxələndirilməsi imkanlarını nəzərdə tutan "Baltik dənizi – Qara dəniz – Xəzər dənizi" nəqliyyat dəhlizinin yaradılmasını bu istiqamətdə əsas vəzifələrdən biri adlandırıb.

Müxtəlif sahələrdə qarşılıqlı əlaqələrin yoluna qoyulduğunu edən G.Zubko vurğulayıb ki, hökumətlərarası nümayəndə heyətinin fəaliyyəti əməkdaşlığın genişlənməsinə və dərinləşməsinə yönəlib. Onun sözlərinə görə, ölkələrimizin ixrac-idxal potensialı son illərdə bir qədər azalıb. O, bu prioritet məsələnin həllini təkcə əmtəə və məhsulların ixracının artırılmasında deyil, həm də lazımınca qiymətləndirilməyən tranzit imkanlarının həyata keçirilməsində görür. Ukrayna Baş nazirinin müavini deyib: "Bu gün Azərbaycan nəqliyyat infrastrukturunda mühüm rol oynayan tərəfdaşlardan biridir".

GƏNCLƏRƏ QAYĞI GƏMİÇİLİYİN PERSPEKTİVLİ, BİLİKLİ KADRLARLA TƏMİNATINDA ƏHƏMİYYƏTLİ ROL OYNAYACAQ

Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin rəhbərliyi Dəniz Akademiyasının təhsildə uğurlu nəticələri ilə fərqlənən məzunlarının işlə təmin olunmasına, karyera inkişafına, əlavə təhsil almasına, habelə sosial müdafiəsinin gücləndirilməsinə daim xüsusi diqqət yetirir. Regionda dənizçilik sahəsində yeganə ali təhsil müəssisəsi olan Azərbaycan Dövlət Dəniz Akademiyasında tələbələrin savadlı mütəxəssis kimi yetişməsi Gəmiçiliyin perspektivli, bilikli kadrlarla təminatında əhəmiyyətli rol oynayır.

Bu günlərdə Dəniz Akademiyasında bakalavr pilləsini bitirən IV kurs tələbələri buraxılış işlərini müdafiə etdilər. 10 ixtisas üzrə təhsil alan gənclər Azərbaycanda dəniz nəqliyyatı sahəsində nüfuzlu mütəxəssislərdən ibarət müdafiə komissiyaları qarşısında çıxış etdilər, gələcək sərbəst həyatın astanasında son imtahandan keçdilər.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri Rauf Vəliyev bu vəzifəyə təyin olunandan dəfələrlə Dəniz Akademiyasının tələbələri ilə rəsmi və qeyri-rəsmi görüşlər keçirib, onların həm təhsili, həm də sosial problemləri ilə yaxından tanış olub, çətinliklərin həlli üçün müvafiq qurumlara tapşırıqlar verib. Gənclərlə səmimi söhbətlərdə onlara dənizçi peşəsinin məsuliyyəti ilə yanaşı, hörməti və şərəfi barədə fikirlərini çatdırıb.

Buraxılış prosesinin məsuliyyətini nəzərə alaraq, Rauf Vəliyev iyunun 28-də Dəniz Akademiyasında olub, müdafiələrin obyektiv və şəffaf aparılması ilə maraqlanıb. Cəmiyyətin sədri auditoriyalarda tələbələrin çıxışlarını dinləyib, bütövlükdə gənclərin hazırlığına diqqət yetirib, onlara və müəllimlərə tövsiyələrini verib.

Qeyd edək ki, iyunun əvvəlində Akademiyanın "Dəniz naviqasiyası", "Gəmi elektrotexnikası" və "Gəmi mexanikası" fakültələrində konvensiya ixtisasları üzrə təhsil alan IV kurs tələbələri arasında peşəkar mütəxəssislər və Gəmiçiliyin rəhbər şəxsləri ilə müsahibələrdən keçməklə seçim aparılıb. Təhsildə akademik göstəriciləri, nizam-intizamları, fərdi keyfiyyətləri ilə fərqlənən 11 tələbəyə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri Rauf Vəliyevin imzası ilə işə qəbul üçün zəmanət məktubu təqdim edilib. Onlar Dəniz Akademiyasını uğurla bitirdikdən sonra Gəmiçilik sistemində işlə təmin ediləcəklər.

LİTVA NƏQLİYYAT VƏ İKT SAHƏSİNDƏ AZƏRBAYCANLA ƏMƏKDAŞLIĞIN GENİŞLƏNDİRİLMƏSİNDƏ MARAQLIDIR

Litva nəqliyyat və İKT sahəsində Azərbaycanla əməkdaşlığın genişləndirilməsində maraqlıdır. Litvanın nəqliyyat və kommunikasiya naziri Rimantas Sinkyaviçyus bu fikri AZƏRTAC-ın xüsusi müxbirinə müsahibəsində söyləyib. R.Sinkyaviçyus deyib: "Biz şəhər və kənd yerləri arasında rəqəmsal qeyri-bərabərliyin azaldılması üzrə elektron kommunikasiyalar sahəsində Avropa İttifaqında nümunəvi hesab edilən iri layihələrin reallaşdırılması təcrübəsini bundan sonra da bölüşməyə hazırıq".

Nazir TASİM (Transavrasiya Yüksək Sürətli İnformasiya Magistralı) layihəsinin sürətləndirilməsində Litvanın maraqlı olduğunu bildirib. Azərbaycanın da fəal iştirak etdiyi bu layihənin məqsədi Qərbi Avropa və Şərqi Asiya ölkələrindən keçən transmilli lifli-optik xətt çəkilməsidir.

R.Sinkyaviçyusun fikrincə, Litvanın ictimai sektorda elektron xidmətlər yaradılması sahəsində təcrübəsi də Azərbaycan üçün maraqlı ola bilər. Nazir bildirib ki, Litva elektron ictimai-inzibati xidmətlər sahəsində tərəqqi baxımından Aİ ölkələri arasında liderlərdən biridir. Litvanın DocLogix şirkəti "Azərbaycan Respublikasında G-Cloud bazasında vahid elektron sənəd dövriyyəsi" layihəsinin reallaşdırılması çərçivəsində öz xidmətlərini təklif edir və əməkdaşlığın uğurla davam etdiriləcəyinə ümid bəsləyir.

Nazir diqqətə çatdırıb ki, Litvanın İKT şirkətləri Azərbaycana maliyyə sektoru, energetika və elektron hökumət sahəsində müvafiq həllər, habelə gəmi agentlərindən və ekspeditorlardan başlamış, stividorlarına və Dövlət Dəniz Limanının müdiriyyətinə qədər dəniz limanının bütün iştirakçıları üçün həllər təklif edə bilərlər. Nazirin sözlərinə görə, ölkələrimiz arasında əməkdaşlığın mümkün sahələrindən biri də strateji dövlət resursu olan radiotezliklərindən səmərəli istifadə edilməsidir.

R.Sinkyaviçyus deyib: "Qeyd etmək lazımdır ki, "Azərpoçt" MMC və "Lietuvos pastas" səhmdar cəmiyyəti SC/STEFİ sistemi vasitəsilə elektron pul köçürmələrinin təşkilində əməkdaşlıq edirlər. 2015-ci il aprelin 1-də iki ölkənin poçt təşkilatları arasında müvafiq müqavilə imzalanıb.

Nazir R.Sinkyaviçyus nəqliyyat, avtomobil dəhlizlərinin və aviaaxınların inkişafı sahəsində əməkdaşlıq məsələsinə də toxunaraq bildirib ki, ölkələrimiz yaxın gələcəkdə avtomobil daşımaları sahəsində hökumətlərarası müqavilə imzalamağı planlaşdırırlar. Nazir qeyd edib ki, yaxşı inkişaf etmiş nəqliyyat infrastrukturuna və logistika mərkəzləri şəbəkəsinə malik olan Litva Azərbaycan yüklərinin Avropa və Skandinaviya ölkələrinə təhlükəsiz, sürətli və ucuz daşınmasını təklif edə bilər. Sevindirici haldır ki, Azərbaycan ilə Litva arasında əmtəə dövriyyəsinin artması litvalı və azərbaycanlı avtodaşıyıcılar tərəfindən daşımaların həcminin artmasına gətirib çıxarır.

Nazir onu da diqqətə çatdırıb ki, Baltik dənizinin ən Şimal hissəsində donmayan liman olan Klaypeda limanı öz müasirliyi və səmərəli işləməsi sayəsində Azərbaycan yüklərinin Avropaya və Skandinaviya ölkələrinə təhlükəsiz, sürətli və qənaətlə daşınması üçün böyük imkanlar yarada bilər. Neft, həmçinin taxıl və digər kənd təsərrüfatı məhsullarının daşınması xüsusi maraq doğurur. Son beş ildə Klaypeda limanının infrastrukturuna sanballı sərmayələr qoyulması sayəsində limanda bu məhsulların boşaldılması və yenidən yüklənməsi imkanları xeyli artıb.

Litvalı nazir deyib: "Kombinə edilmiş "Vikinq" nəqliyyat layihəsinə Azərbaycan Dəmir Yollarının da qoşulması bizi çox sevindirir. Bu, Litva, Ukrayna və Belarus dəmir yollarını, Klaypeda, İliçevsk və Odessa stividor şirkətlərinin və limanlarının birgə layihəsidir. Ukrayna, Belarus və Litva ərazisindən keçən marşrut Baltik regionundakı bir sıra dəniz konteyner və kontreyler xətlərini Qara dənizin, Aralıq dənizinin və Xəzər dənizinin analoji sistemi ilə birləşdirir. Layihə daşımaların vahid tarif üzrə həyata keçirilməsinə imkan verir.

Litvadan aviasiya marşrutlarının genişləndirilməsində maraqlı olduğunu bildirən Rimantas Sinkyaviçyus Azərbaycan Respublikası ilə Litva Respublikası arasında birbaşa müntəzəm hava yolu açılmasını prioritet istiqamətlərdən biri adlandırıb.

Nazir Bakı-Tbilisi-Qars dəmir yolunun Litva üçün əhəmiyyətini də vurğulayaraq bildirib ki, bu xətt Çinin cənub yolunun mühüm hissəsi və Rusiya ərazisindən keçməklə malların daşınması üçün potensial alternativ variantlardan biridir.

2014-cü ilin payızında Azərbaycan paytaxtında olmuş litvalı nazir müsahibəsində Bakı haqqında təəssüratlarını bölüşüb. R.Sinkyaviçyus deyib: "Bakı-Tbilisi-Qars dəmir yolu - tarixi Böyük İpək Yolunun inkişafı üçün yeni imkanlar" mövzusunda beynəlxalq konfrans çərçivəsində biz Azərbaycanın nəqliyyat naziri Ziya Məmmədovla hər iki dövlət üçün əhəmiyyətli olan bir sıra məsələləri müzakirə etdik. Bakıda məni çox yaxşı qəbul etdilər. Sizin gözəl, müasir şəhəriniz, səmimi və xeyirxah insanlar mənə çox xoş təsir bağışladı".

Ölkədaxili yükdaşıma qiymətləri sabit qalıb

Cari ilin yanvar-iyun aylarında 2015-ci ilin eyni dövrünə nisbətən nəqliyyat sektorunda yükdaşıma qiymətləri milli valyutada 34,7 faiz bahalaşıb.

Dövlət Statistika Komitəsinin mətbuat xidmətindən bildirilib ki, bu ilin iyun ayında isə may ayına nisbətən yükdaşıma qiymətləri 0,4 faiz, ölkələrarası yükdaşıma qiymətləri dəmir yolu və hava nəqliyyatında 0,7 faiz, dəniz nəqliyyatında 0,6 faiz, avtomobil nəqliyyatında 0,2 faiz bahalaşıb. Ölkədaxili yükdaşıma qiymətləri isə sabit qalıb.

Xəzər dənizində nərə balıqlarının kommersiya ovuna texniki moratorium davam etdiriləcək

İyunun 29-da Qazaxıstanın Astana şəhərində Xəzər dənizinin Su Bioloji Resursları Komissiyasının 36-cı sessiyası keçirilib.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) mətbuat xidmətindən verilən məlumata görə, tədbirdə Azərbaycan ekologiya və təbii sərvətlər nazirinin müavini Rauf Hacıyevin başçılıq etdiyi nümayəndə heyəti ilə təmsil olunub.

Sessiyada Xəzəryanı ölkələr tərəfindən bioresurs ehtiyatlarının vəziyyəti, ümumi icazə verilən balıq ovu, balıqartırma və elmi məqsədlər üçün kvotaların mənimsənilməsi, həmçinin balıq ehtiyatlarının mühafizəsi üzrə məlumatlar təqdim olunub. Həmçinin 2016-cı və 2017-ci illərdə Xəzər dənizində nərə balıqlarının kommersiya ovuna texniki moratoriumun davam etdirilməsi, yalnız cüzi həcmdə balıqartırma və elmi-tədqiqat məqsədləri üçün kvotaların mənimsənilməsi haqqında ümumi qərar qəbul edilib.

Eyni zamanda, "Xəzər dənizinin su bioloji resurslarının mühafizəsi və səmərəli istifadəsi haqqında Saziş"ə uyğun olaraq Rusiya Federasiyasının təqdim etdiyi bildiriş əsasında bu sazişin 2016-cı il mayın 24-dən etibarən qüvvəyə minməsi barədə məlumat verilib. Sazişin ratifikasiyasının bütün Xəzəryanı ölkələrdə başa çatmasını nəzərə alaraq, Komissiyanın statusunun təsisatlararası səviyyədən hökumətlərarası status səviyyəsinə qaldırılması haqqında elan verilib.

Yeni Komissiyanın birinci təsisedici hökumətlərarası sessiyasının rotasiya qaydasına uyğun olaraq cari ilin noyabr ayında Azərbaycanda keçirilməsi barədə qərar qəbul olunub.

Hər vəhşi heyvanı və ya quşu ovlamaq olmaz

Azərbaycan Respublikası ərazisində 2016-2017-ci illər üzrə ov mövsümünün başlanması ilə bağlı vəhşi heyvanların və quşların ovlanmasının müddətləri və normaları, ov icazələrinin bölgü cədvəlləri hazırlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyindən bildirilib ki, respublika ərazisində Dağıstan turunun (təkə), qabanın, dovşanın, bataqlıq qunduzunun (nutriya), cüllütün (ağquyruq, çökükburun, qırqıldayan cüllüt, kiçik kroşnep və çöl haçaquyruq cüllütü istisna olmaqla), qazın (ağqaş və qırmızıdöş qaz istisna olmaqla), ördəyin (ağgöz qara ördək, göydimdik və mərmər cürə istisna olmaqla) və qaşqaldağın ovlanmasına icazə verilir.

Dağıstan turu bu il iyunun 18-dən oktyabrın 15-dək, qaban sentyabrın 17-dən dekabrın 17-nə kimi, dovşan isə 2016-cı il noyabrın 12-dən 2017-ci il yanvarın 14-dək ovlana bilər. Bataqlıq qunduzunu oktyabrın 8-dən gələn il fevralın 18-nə qədər volyerlərdə saxlamaq üçün ovlamaq olar.

Cüllütün ovu bu il sentyabrın 17-dən noyabrın 12-dək, qazın, ördəyin və qaşqaldağın ovu isə 2016-cı il oktyabrın 15-dən 2017-ci il martın 11-nə kimi mümkündür.

Bununla əlaqədar vətəndaşları maraqlandıran əlavə məlumatların alınması və ov icazələrinin əldə edilməsi üçün aidiyyəti üzrə ərazi ekologiya və təbii sərvətlər şöbələrinə müraciət oluna bilər.

BÖYÜK İPƏK YOLUNUN BƏRPASI REGİON ÖLKƏLƏRİNİN İQTİSADİ ƏMƏKDAŞLIĞININ YÜKSƏK SƏVİYYƏYƏ ÇATMASINI TƏMİN EDƏCƏK

Milli Məclisin iqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə Çində keçirilən "İpək Yolu - əməkdaşlıq və inkişaf" mövzusunda investisiya forumunda iştirak edib.

Forumun plenar iclasında Çinin Qansu əyalətinin Kommunist Partiyasının katibi Van San Yuun, Ümumçin Siyasi Konsultativ Şurası sədrinin müavini Van Cin Vey, Tailandın Baş nazirinin müavini Somkit Çatusipitak, Şanxay Əməkdaşlıq Təşkilatının baş katibi Rəşid Alimov, BMT-nin İnkişaf Proqramının rəhbəri Helen Klark çıxış ediblər.

Ziyad Səmədzadə plenar iclasdakı çıxışında Azərbaycanın iqtisadi nailiyyətləri, ölkəmizdə yaradılmış əlverişli investisiya mühiti haqqında ətraflı məlumat verib.

Səfərlə bağlı təəssüratlarını AZƏRTAC ilə bölüşən Milli Məclisin komitə sədri deyib ki, iclas iştirakçıları Azərbaycan iqtisadiyyatında baş verən proseslərə böyük maraq nümayiş etdirdilər. Açıq-aşkar görünürdü ki, münbit sərmayə mühiti və dayanıqlı inkişafa malik Azərbaycan bazarı getdikcə Çin şirkətləri üçün daha cəlbedici olur. Çin sahibkarları üçün emal, toxuma və digər sahələrə aid birgə istehsal müəssisələrinin tikilməsi, yol inşası, ticarət, bank, maliyyə, farmakologiya, səhiyyə sahələrində əlaqələr maraqlıdır. Çinli sərmayədarların cəlb edilməsi üçün əməkdaşlığın prioritet sahələrindən biri də turizmdir.

Səfər çərçivəsində Milli Məclisin komitə sədri şimali-qərbi Çinin və Qansu əyalətinin xarici aləmlə əməkdaşlığının möhkəmləndirilməsində mühüm rol oynayan 22-ci

Lançjou ticarət yarmarkasında da iştirak edib. Lançjou yarmarkası Çində və xaricdə böyük populyarlığa malikdir və bu tədbirin güclü beynəlxalq təsiri var.

Qansu əyalətinin Kommunist Partiyasının katibi Van San Yuunla keçirilən görüşdə o, ölkəmizin qlobal çağırışlar və təhlükələrə qarşı fəaliyyətini, dayanıqlı sosial-iqtisadi inkişafın təminatında əldə etdiyi uğurları yüksək qiymətləndirib. Onun fikrincə, azərbaycanlı tərəfdaşlarla əməkdaşlığın artırılmasının əsas aspekti hər iki ölkənin kommersiya dairələrində ticarət və biznes əlaqələrinin birgə səylərindən keçir.

Şanxay Əməkdaşlıq Təşkilatının baş katibi Rəşid Alimovla görüşdə regional əhəmiyyət kəsb edən aktual məsələlərə dair fikir mübadiləsi aparılıb. Bildirilib ki, son illər ŞƏT-in siyasi yükü xeyli artıb, bu təşkilat praktikada çoxqütblü dünyamızın sürətlə formalaşan mərkəzlərindən birinə çevrilib.

Həmçinin Tacikistanın Ticarət-Sənaye Palatasının sədri Şarif Səidlə, Çinin Kommersiya Nazirliyinin rəhbərliyi, bu ölkənin Ticarət-Sənaye Administrasiyası Baş Dövlət İdarəsinin və Ümumçin Sənaye və Tacirlər Assosiasiyasının nümayəndələri ilə maraqlı diskussiyalar aparılıb.

Azərbaycan-Çin münasibətlərindən danışan Z.Səmədzadə deyib ki, ölkələrimiz arasında keyfiyyətcə yeni səviyyəyə keçmiş əməkdaşlıq ildən-ilə genişlənir və dərinləşir və bu da müsbət nəticələrini verməkdədir. Siyasi sahədə qarşılıqlı etimad səviyyəsi formalaşıb. İqtisadi sahədə Azərbaycan və Çin çox mühüm tərəfdaşlardır. Humanitar mübadilə çox parlaqdır və müxtəlif hadisələrlə zənginləşir, beynəlxalq məsələlər üzrə strateji əlaqələndirmə mütəmadi olaraq möhkəmlənir. Dövlət başçıları arasında çox gözəl işgüzar münasibətlər yaranıb ki, bu da münasibətlərin inkişaf vektorunun müəyyənləşməsi baxımından mühüm rol oynayır. 2015-ci ilin dekabrında Azərbaycan Prezidenti İlham Əliyevin Çinə səfəri zamanı siyasi, iqtisadi, sosial inkişaf və qarşılıqlı əməkdaşlığın bir çox sahələrini əhatə edən mühüm sənədlər imzalanıb. Ən vacib məqamlardan biri də odur ki, Çin həmişə Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyib. Bu gün Çin şirkətləri Azərbaycanda energetika, informasiya-kommunikasiya texnologiyaları və digər sahələrdə uğurla fəaliyyət göstərirlər. Bu sahələrdə əməkdaşlığın gələcəkdə də genişləndirilməsi üçün çox gözəl perspektivlər mövcuddur. Bu baxımdan Asiya İnfrastruktur İnvestisiya Bankı ilə əməkdaşlıq, o cümlədən nəqliyyat və sənaye sahələrində əlaqələrin genişləndirilməsi imkanı mühüm əhəmiyyət kəsb edir. Azərbaycan və Çin arasında təhlükəsizlik sahəsindəki əməkdaşlıq da regionda böyük rol oynayır. Çinin təşəbbüsünə qoşulan Azərbaycan Asiya İnfrastruktur İnvestisiya Bankının həmtəsisçisi olub. Bu, bizim iqtisadi əməkdaşlığımızın çox yaxşı göstəricisidir. Bir çox Çin şirkətləri Azərbaycanda aktiv fəaliyyət göstərir. Biz Azərbaycanda müxtəlif sahələrdə - infrastruktur, tikinti sahələrində ixtisaslaşmış çoxlu Çin şirkətlərini görmək istəyirik. Lançjou yarmarkası məhz bu cür əməkdaşlığın fəallaşdırılması üçün çox ciddi platformalardan biridir.

Ölkəmizin Böyük İpək Yolu layihəsində iştirakı perspektivlərindən söhbət açan komitə sədri deyib ki, Yeni İpək Yolu iqtisadi xəttinin yaradılması nəinki ticarət, enerji, elm və texnologiya, informasiya, kənd təsərrüfatında, həm də turizm sahəsində əməkdaşlıq üçün yeni imkanlar yaradacaq. Strateji ticarət marşrutu olan Yeni İpək Yoluna zəngin mədəni və tarixi dəyərləri, ənənələri olan ölkələrin ərazisindən keçən böyük turizm marşrutu kimi baxılmalıdır. Böyük İpək Yolunun bərpası magistral boyunca iqtisadi inteqrasiya və ticarətin liberallaşdırılmasını nəzərdə tutur. Bu proses iki ölkə arasında iqtisadi və mədəni mübadiləni yüksək səviyyədə təmin edəcək, turizmin inkişafını sürətləndirəcək və asanlaşdıracaq.

Son illər Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi məqsədilə turizm sənayesinə xüsusi diqqət yetirilib. Ölkəmizin böyük turizm potensialı var və bu bazanı inkişaf etdirmək, potensial turistləri maraqlandırmaq lazımdır.

Z.Səmədzadə qeyd edib ki, İpək Yolu İqtisadi Kəmərinin inkişafı üzrə birgə iş Azərbaycan və Çin iqtisadiyyatının inkişafı üçün əlavə imkanlar yaradacaq. Həm bu məqsədlə, həm də nəqliyyat və infrastruktur inkişafına xidmət edən birgə layihələrin reallaşdırılması naminə iki ölkənin səlahiyyətli idarələri arasında əməkdaşlığı bundan sonra da dərinləşdirmək önəmlidir.

Hər ölkənin inkişafında elə tarixi hadisələr olur ki, onlar əsrlər boyu fayda gətirir, gəlir mənbəyi olur, daimi iş yerlərinin yaradılmasına kömək edir, səmərəli inteqrasiya əlaqələrinin əsasını qoyur. Qədim İpək Yolu Azərbaycan üçün məhz belə amildir. Qərb və Şərq arasında əlverişli coğrafi mövqeyi nəzərə alaraq, bu proqramın həyata keçirilməsi ilə Azərbaycan ərazisindən keçən tranzit yük daşınmaları dövlət xəzinəsinə əlavə vəsaitlərin daxil olmasına xidmət edəcək. Bu layihənin həyata keçirilməsində Azərbaycanın fəal iştirakı respublikanın dünyada baş verən qlobal inteqrasiya proseslərinə daha fəal qoşulması deməkdir. Bu isə öz növbəsində milli iqtisadiyyatımızın strukturunun təkmilləşdirilməsi, dünya bazarında rəqabətədavamlı malların istehsalı üçün şərait yaradacaq. Nəhayət, Qədim İpək Yolu nəqliyyat dəhlizində Azərbaycanın fəaliyyəti dövlətimizin iqtisadi təhlükəsizliyinin möhkəmləndirilməsi, onun iqtisadi qüdrətinin artırılması üçün çox vacib amildir.

Qədim İpək Yolu nəqliyyat dəhlizinin mərkəzində Azərbaycan durur və bu ölkə çox mühüm geosiyasi və geoiqtisadi mövqe tutur. Şübhəsiz, Bakı Beynəlxalq Dəniz Limanının, donanmanın, Xəzər Dəniz Gəmiçiliyinin sahil obyektlərinin, Azərbaycan Dəmir Yollarının və Azərbaycan Hava Yollarının yeniləşdirilməsi, texniki təchizatın dünya standartlarına çatdırılması respublikamızın inkişafına çox güclü təkan verəcək. Bütün bunlar ölkəmizin iqtisadiyyatını şaxələndirməklə yanaşı, onun tranzit imkanlarını əhəmiyyətli dərəcədə genişləndirəcək.

BAKI–TBİLİSİ–CEYHAN ƏSAS İXRAC NEFT BORU KƏMƏRİNİN İSTİFADƏYƏ VERİLMƏSİNDƏN 10 İL ÖTÜR

Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft boru kəmərinin – BTC çəkilməsi ilə reallaşan və ulu öndər Heydər Əliyevin bir neçə onilliklər üçün hesablanan neft strategiyasının həlli və uğurla davam etdirilməsinin nəticəsidir ki, bu gün Azərbaycan dünya birliyində siyasi, iqtisadi inkişafı, qlobal hadisələrə təsir imkanları artan qüdrətli dövlət kimi tanınır, qəbul olunur. Əminliklə demək olar ki, "Üç dənizin əfsanəsi" adlandırılan və minilliyin ən böyük neft ixracı marşrutlarından sayılan Bakı-Tbilisi-Ceyhan haqqında deyilən və geniş məkan mənasında işlədilən qlobal layihə sözü ötən müddətdə artıq öz təsdiqini tapıb.

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə işlənib hazırlanmış yeni neft strategiyasının təməl daşını təşkil edən "Əsrin müqaviləsi"nin imzalanması ilə müstəqil Azərbaycan dövlətinin tarixində milli neft strategiyası həyata keçirilməyə başlandı. Məhz bu müqavilədən sonra dünya dövlətlərinin Azərbaycan iqtisadiyyatına marağı artdı, ölkəmizin beynəlxalq əlaqələrinin genişlənməsinə güclü təkan verildi. "Əsrin müqaviləsi"nin mühüm tərkib hissələrindən birini də xarici şirkətlərlə birlikdə hasil olunan neftin nəqlini və xarici bazarlara ixracını təmin edəcək çoxvariantlı boru nəqliyyat infrastrukturunun yaradılması təşkil edir. Ümummilli lider Heydər Əliyev bu məsələdə qətiyyət nümayiş etdirərək Azərbaycan neftini Aralıq dənizi vasitəsilə dünya bazarlarına çıxaracaq Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft boru kəməri ideyasını irəli sürdü. Bu ideyanı qəbul etmək istəməyən bəzi qüvvələrin cəhdlərinə baxmayaraq, Heydər Əliyevin səyi və gərgin keçən danışıqlar prosesinin məntiqi nəticəsi olaraq bu layihə həyata vəsiqə aldı. Belə ki, ATƏT-in 1999-cu ilin noyabrın 18-də İstanbulda keçirilən sammitində Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin çəkilişi ilə bağlı bəyannamə imzalandı. Beləliklə də, Bakı-Tbilisi-Ceyhan layihəsinin reallığa çevrilməsi üçün hüquqi baza yaradıldı. Daha sonra isə layihənin bəzi detallarının dəqiqləşdirilməsi, lazımi maliyyə mənbələrinin müəyyənləşdirilməsi ilə bağlı danışıqlar aparıldı.

BP şirkəti layihənin operatoru seçildi və kəmərin tikintisi, istismarı üçün isə "BTC Ko." şirkəti yaradıldı. Onun səhmdarları BP (30,1 faiz), SOCAR (25 faiz), Şevron (8,9 faiz), Statoyl (8,71 faiz), TPAO (6,53 faiz), ENİ (5 faiz), Total (5 faiz), İtoçu (3,4 faiz), İNPEX (2,5 faiz), KonokoFillips (2,5 faiz) və Amerada Hess (2,36 faiz) şirkətləri oldu. Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti Bakı-Tbilisi-Ceyhan (BTC) layihəsində iştirak etmək məqsədilə "AzBTC Co." törəmə şirkətini təsis etdi və bu qurum layihənin iştirakçıları olan neft şirkətlərinin konsorsiumu tərəfindən yaradılmış "BTC Company" şirkətində 25 faizlik iştirak payı əldə etdi. "AzBTC Co." şirkəti daxil olmaqla bütün digər iştirakçılar layihənin dəyərinin 30 faizlik hissəsini öz vəsaitləri hesabına, qalan 70 faizlik hissəsini isə beynəlxalq maliyyə institutlarından, ixrac kredit agentliklərindən və kommersiya banklarından cəlb edilmiş kredit vəsaitləri hesabına maliyyələşdirilməsi ilə bağlı qərar qəbul etdilər. Azərbaycan dövləti adından Azərbaycan "BTC Co." şirkətindəki payının maliyyələşdirilməsi isə Dövlət Neft Fondu tərəfindən həyata keçirildi. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 2002-ci il iyulun 30-da "Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri layihəsində Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin iştirak payının maliyyələşdirilməsi haqqında" Fərman imzaladı. Həmin Fərmanda BTC layihəsində Azərbaycan Respublikasının iştirakının təmin edilməsi ilə bağlı öhdəliklərin yerinə yetirilməsi, o cümlədən ölkənin iştirak payının maliyyələşdirilməsi ilə bağlı məsələlər öz əksini tapdı.

Nəhayət, 2002-ci il sentyabrın 18-də Bakıda - Səngəçal terminalının ərazisində Azərbaycan, Gürcüstan və Türkiyənin dövlət başçıları Heydər Əliyev, Eduard Şevardnadze və Əhməd Necdət Sezərin iştirakı ilə Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təməli qoyuldu. Bununla da, ümummilli lider Heydər Əliyevin müəllifi olduğu yeni neft strategiyasının mühüm tərkib hissələrindən olan Bakı-Tbilisi-Ceyhan layihəsinin reallığa çevrilməsinə başlanıldı. Kəmərin inşası üçün podratçı şirkətin müəyyən edilməsi məqsədilə beynəlxalq səviyyəli tender elan olundu. Tender prosesinin nəticəsi olaraq Yunanıstanın Konsolideytd Kontraktors Kompani (CCIC) şirkəti qalib elan edildi. 2003-cü ilin fevral ayında Bakı yaxınlığındakı Səngəçal terminalından başlayaraq kəmərin tikintisinə start verildi. 2004-cü ilin oktyabrında BTC-nin Azərbaycan hissəsi Gürcüstan ərazisindən keçən hissəsi ilə birləşdirildi. BTC-nin Gürcüstan hissəsi 2005-ci ilin oktyabrında istifadəyə verildi.

Ulu öndər Heydər Əliyevin qalibiyyətli neft strategiyasının ardıcıl şəkildə həyata keçirilməsi sahəsində misilsiz xidmətlər göstərən Azərbaycan Prezidenti İlham Əliyev dövlət başçısı kimi fəaliyyətə başladığı ilk günlərdən etibarən layihənin gedişi ilə bağlı şəxsən maraqlanır, vaxtaşırı olaraq tikinti işləri ilə tanış olur. Nəhayət, 2005-ci ilin aprelində tikinti işləri yekunlaşdırıldı. Həmin il mayın 25-də Səngəçal terminalında xam neftin BTC-yə vurulması ilə bağlı rəsmi tədbir keçirildi. Azərbaycan, Gürcüstan və Türkiyənin dövlət başçıları İlham Əliyev, Mixeil Saakaşvili və Əhməd Necdət Sezər terminalda quraşdırılmış xüsusi qurğudakı sürgünü açdıqdan sonra kəmərlə ilkin neft axmağa başladı.

2006-cı il mayın 28-də Azərbaycan nefti Ceyhan limanına çatdı. İyulun 4-də isə neftlə yüklənmiş ilk tanker buradan yola salındı. 2006-cı il iyulun 13-də Türkiyənin Ceyhan şəhərində XXI əsrin ən böyük enerji layihəsi olan Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan

əsas ixrac boru kəmərinin təntənəli açılış mərasimi keçirildi.

Xəzər dənizi ilə Aralıq dənizini birləşdirən bu yeni enerji dəhlizinin fəaliyyəti sayəsində Azərbaycan neftinin beynəlxalq bazarlara genişmiqyaslı nəqli və ölkədə çoxvariantlı ixrac strategiyasının həyata keçirilməsi üçün əlverişli imkan yarandı, eyni zamanda ölkənin tranzit potensialı bir neçə dəfə artdı. Xalqımızın ümummilli lideri Heydər Əliyevin adını daşıyan Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri "Əsrin müqaviləsi" çərçivəsində Xəzər dənizinin Azərbaycan sektorunda hasil olunan xam neftin dünya bazarına çıxışını təmin etmək üçün inşa edilmiş boru nəqliyyat vasitəsidir. Kəmərin uzunluğu 1768 kilometrdir. Respublikamızın 13 rayonundan - Qaradağ, Abşeron, Hacıqabul, Ağsu, Kürdəmir, Ucar, Ağdaş, Yevlax, Goranboy, Samux, Şəmkir, Tovuz və Ağstafadan keçən kəmərin Azərbaycan hissəsinin uzunluğu 443 kilometrdir. Qalan 248 kilometr Gürcüstanın, 1076 kilometr isə Türkiyənin ərazisindən keçir.

Boru kəmərinin Azərbaycan və Gürcüstanda yerləşən hissələrinin operatoru "BTC Ko"nun səhmdarları adından bp, Türkiyədə yerləşən hissəsinin operatoru isə "BOTAŞ Interneşnl Limited" şirkətləridir. Kəmərin diametri Azərbaycanda və Türkiyədə, əsasən 42 düymlükdür. Gürcüstan ərazisində kəmər 46 düymlük borularla çəkilib. Türkiyədə Ceyhan dəniz terminalına enən axırıncı eniş boyu hissədə isə 34 düymlüyədək azalır. Boru kəməri 1500-dən artıq çayla və 13 seysmik qırılma xətti ilə kəsişir. Kəmərin ən yüksək nöqtəsi 2 min 800 metr olan dağlardan keçdiyi yerdir ki, bundan sonra o, Ceyhanda yenidən dəniz səviyyəsinə enir. Kəmərin istismar müddəti 40 il, orta ötürücülük qabiliyyəti isə sutkada 1,2 milyon barrel nəzərdə tutulub. Səngəçal terminalından Türkiyənin Aralıq dənizi sahilindəki Ceyhan terminalınadək uzanan kəmərin çəkilməsinə təxminən 4,5 milyard dollar vəsait xərclənib. Kəmər vasitəsilə ildə 60 milyon ton neftin nəql edilməsi nəzərdə tutulur. Bakı-Tbilisi-Ceyhan boru kəməri Azərbaycan, Gürcüstan, Türkiyə və bütövlükdə bölgə, Avropa və ümumən dünya üçün iqtisadi və siyasi baxımdan, eləcə də enerji təhlükəsizliyi cəhətdən çox böyük əhəmiyyətə malik olmaqla yanaşı, Türkiyənin Qara dəniz boğazlarının həddən artıq yüklənməsinin də qarşısını alıb.

Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri əsasən "Azəri-Çıraq-Günəşli" yataqlar blokundan hasil edilən nefti və "Şahdəniz" yatağından çıxarılan kondensatı Azərbaycandan nəql edir. Bundan əlavə, hazırda Türkmənistan nefti də bu boru kəməri vasitəsilə nəql olunur. 2013-cü ilin oktyabrından etibarən isə BTC boru kəməri ilə yenidən müəyyən həcmlərdə Qazaxıstanın "Tengiz" yatağından çıxarılan xam neftinin nəqlinə başlanıldı.

Bu ilin iyun ayında BTC vasitəsilə 2 milyon 489 min 988 ton Azərbaycan nefti nəql olunub. Cari ilin yanvar-iyun aylarında isə kəmərlə 14 milyon 930 min 790 ton neft ötürülüb. Ümumiyyətlə BTC istifadəyə verilən gündən bu il iyulun 1-dək kəmərə 307 milyon 606 min 179 ton neft vurulub. Həmçinin iyunda BTC kəməri ilə 371 min 206 ton Türkmənistan nefti də nəql edilib.

Azərbaycanın iqtisadi siyasətinin ən böyük uğurlarından sayılan BTC ölkəmizin Avrasiya regionunda mövqeyini xeyli gücləndirib, dövlətimizi Cənubi Qafqazın liderinə çevirib. Bu gün ulu öndər Heydər Əliyevin adını daşıyan BTC təkcə Azərbaycan üçün deyil, ümumilikdə beynəlxalq aləmdə enerji təhlükəsizliyi sistemi və neft ixracı sahəsində ölkəmizlə uğurlu tərəfdaşlıq edən dövlətlər üçün də müstəsna əhəmiyyət kəsb edən bir layihədir. BTC mühüm texniki-iqtisadi əhəmiyyətə malik olmaqla yanaşı, həm də böyük siyasi məzmun kəsb edir. Belə ki, bu kəmər dünya dövlətləri ilə Azərbaycanın yeni münasibətlərinin qurulmasına təkan verib, ölkəmizin xarici siyasətinin güclənməsinə və inkişaf etməsinə zəmin yaradıb.

Nihad Budaqov

Ermənistandan axıdılan çirkab suları Kür çayında biogen maddələrin miqdarını artırıb

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Ətraf Mühit üzrə Milli Monitorinq Departamenti Kür və Araz transsərhəd çaylarının, həmçinin onların qollarının çirklənmə vəziyyətini öyrənmək məqsədilə iyul ayının birinci ongünlüyü üçün növbəti monitorinq keçirib.

Nazirliyin mətbuat xidmətindən verilən məlumata görə, Kür çayında su sərfi iyun ayının üçüncü ongünlüyünə nisbətən saniyədə 60 kub-metr azalıb. Monitorinqin nəticələrinə əsasən, Gürcüstan və Ermənistan ərazilərindən təmizlənmədən birbaşa su obyektlərinə axıdılan məişət tullantıları və sənaye müəssisələrinin çirkab sularının təsiri nəticəsində Kür çayı və onun qollarında biogen maddələrin miqdarı normadan dəfələrlə artıq olub. Suyun tərkibindəki spesifik çirkləndiricilərdən fenollar Şıxlı-2 məntəqəsində 3,5, Ağstafaçayda 3,4, Ağstafaçay su anbarında isə 3,2 dəfə yol verilən qatılıq həddini keçib.

Fenolların Araz çayı üzrə Horadizdə 3,1, Birinci Şahsevəndə 3,3, Bəhramtəpədə isə 3,2 dəfə qatılıq həddini keçdiyi müəyyən edilib. Mis birləşmələri isə Kür və Araz çayları üzrə bütün məntəqələrdə norma daxilində tərəddüd edib.

Suyun oksigen rejiminin bütün məntəqələrdə sanitar norma daxilində dəyişdiyi qeydə alınıb.

Körpünün və dəmir yolu xəttinin tikintisinin 2016-cı ilin sonunadək yekunlaşdırılması planlaşdırılır

Astara çayı üzərində tikiləcək dəmir yolu körpüsünün aşırımında 24 ədəd 32 metr dərinliyində özül qoyulub, iki aşırımın dayağı tikilib.

Digərlərinin sənədləşməsi aparılır.

Astara stansiyasından İran İslam Respublikası dövlət sərhədinə qədər birxətli 8,3 kilometr uzunluğunda dəmir yolu xəttinin 7 kilometrində torpaq yatağının işlənməsi başa çatdırılıb. Relyefi mürəkkəb olan əraziyə 100-ə yaxın texnika cəlb olunub. Bu günə kimi 280 min kubmetr qum, qaya daşı, çınqıl və köhnə dəmir-beton məmulatı döşənib.

Ərazidə çirkab sularının axıdılması üçün 14 ədəd suötürücü qurğu tikiləcək. Bunun 7 ədədi artıq hazırdır. Eyni zamanda dəmir yolu xəttinin çəkildiyi ərazıyə düşən elektrik və qaz xətlərinin köçürülməsi davam etdirilir. Bu işlər yaxın vaxtlarda başa çatacaq. Bütövlükdə bu ərazidə köçürülməli olan 315 obyekt var. Bunun da 10-u yaşayış evidir. Artıq 60 yaxın obyektin, o cümlədən 3 evin köçürülməsi başa çatıb.

Qeyd edək ki, "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi haqqında Razılaşma Rusiya Federasiyası, İran İslam Respublikası və Hindistan arasında 2000-ci il sentyabrın 12-də Sankt-Peterburq şəhərində bağlanıb. Göstərilən dövlətlərdə daxili prosedurlardan keçdikdən sonra Razılaşma 2002-ci il mayın 21-də qüvvəyə minib. 2005-ci ilin sentyabrında Azərbaycan "Şimal-Cənub Beynəlxalq nəqliyyat dəhlizi haqqında Saziş"ə qoşulub.

Proqnozlar göstərir ki, tam gücü ilə fəaliyyət göstərəcəyi təqdirdə "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi Avropa ölkələrinin, Rusiyanın, Mərkəzi Asiya və Qafqaz regionlarının Fars körfəzi və Hindistana çıxışına, Xəzəryanı ölkələrin Qara dəniz limanları ilə ticarət əlaqələrinin intensivləşdirilməsinə şərait yaradacaq.

Xatırladaq ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2015-ci il dekabrın 7-də "Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin Azərbaycan Respublikasının ərazisindən keçən hissəsində işlərin sürətləndirilməsi haqqında" Sərəncam imzalayıb.

Həmin Sərəncama uyğun olaraq, 2016-cı il aprelin 20-də Azərbaycan Respublikası ilə İran İslam Respublikasının dövlət sərhədində, Astara çayı üzərində 82,5 metr uzunluğunda dəmir yolu körpüsünün təməli qoyulub, 2016-cı il martın 1-dən Astara stansiyasından İran İslam Respublikası dövlət sərhədinə qədər birxətli 8,3 kilometr uzunluğunda yeni dəmir yolu xəttinin tikintisinə start verilib.

Altı ayda Ceyhan limanından 8,5 milyon tondan çox neft ixrac edib

SOCAR iyunda Novorossiysk limanından 159 min 574 ton, Supsa limanından 176 min 120 ton, Ceyhan limanından isə 1 milyon 340 min 337 ton xam neft ixrac edib.

SOCAR-ın mətbuat xidmətindən bildirilib ki, yanvar-iyun aylarında Novorossiysk limanından 479 min 73 ton, Supsa limanından 1 milyon 217 min 67 ton, Ceyhan limanından 8 milyon 536 min 793 ton, Kulevi terminalından isə 14 min 946 ton xam neft ixrac olunub.

SOCAR tərəfindən ixrac olunan xam neftin göstəriciləri həm Azərbaycan dövlətinə, həm də şirkətin özünə məxsus xam neft həcmlərini əks etdirir.

Gürcüstanın Hərbi Dəniz Qüvvələri yaratmaq üçün maliyyə imkanları yoxdur

Bizim Hərbi Dəniz Qüvvələrimiz yoxdur. Bu cür qüvvələrin yaradılması üçün təkcə bacarıqlı hərbçi kadrların olması azdır. Bunun üçün maliyyə imkanları olmalıdır. Gürcüstanın Hərbi Dəniz Qüvvələrini yaratmaq üçün maliyyə imkanları yoxdur.

Bu sözləri Gürcüstanın müdafiə naziri Tinatin Xidaşeli deyib.

Nazir bildirib ki, Qara dənizdə təhlükəsizlik məsələlərini NATO həyata keçirir və Gürcüstan bu prosesdə iştirak edir. "Bizim NATO-ya üzvlüyümüzdən asılı olmayaraq Varşava Sammitində qəbul olunacaq istənilən konsepsiya Gürcüstanın iştirakı ilə qəbul ediləcək. NATO-nun Qara dənizdə keçirəcəyi istənilən bütün təlimlərdə Gürcüstan fəal iştirak edəcək", - deyə o bildirib.

Bəzi siyasətçilər T.Xidaşelinin bəyanatını Gürcüstan-NATO əlaqələrinin inkişafının göstəricisi kimi qiymətləndiriblər.

Nazirin bu bəyanatını Gürcüstanın NATO və digər beynəlxalq təşkilatlardan, eləcə də hegemon dövlətlərdən asılılığına işarə kimi dəyərləndirənlər də var.

Xətayi Əzizov

İpək Yolu ölkələri ilə neft-qaz əməkdaşlığını genişləndirməyi təklif edir

İpək Yolu iqtisadi qurşağında və XXI əsrin dəniz İpək Yolunda yerləşən ölkələr arasında neft-qaz əməkdaşlığını genişləndirmək üçün daha ciddi addımlar atılmalıdır. Bu sahədə əməkdaşlıq bütün neft-qaz sənayesi zəncirini əhatə etməlidir. "Sinxua" agentliyinin verdiyi xəbərə görə, bunu Çuntsində (Cənub-Qərbi Çin) "Asiyada davamlı energetik inkişaf və əməkdaşlıq yolları" devizi ilə keçirilən forumda çinli ekspert bildirib.

Çin Neft Texniki-İqtisadi İnstitutunun direktor müavini Tsyan Syuefenin sözlərinə görə, dünya neft təchizatının yarısı və istehlakının üçdəbir hissəsi İpək Yolu iqtisadi qurşağı və XXI əsrin dəniz İpək Yolunda yerləşən ölkələrin payına düşür. Lakin Avrasiya regionunda bütün neft və qaz dəhlizlərinin 70 faizi qərb və şimal istiqamətlərinə uzanıb və yalnız 30 faizi cənuba və şərqə yönəlib.

Tsyan Syuefenin fikrincə, neft-qaz marşrutlarının təhlükəsizliyini təmin etmək üzrə ikitərəfli və çoxtərəfli əməkdaşlıq mexanizmləri yaradılmalı, fövqəladə hallara əlaqəli reaksiya verilməlidir.

"DƏMİR YOLU İLƏ LİMANLARA, O CÜMLƏDƏN BAKININ LİMANLARINA ÇATDIRILAN YANACAQ BURADAN İRANA TANKERLƏRLƏ YOLA SALINACAQ"

"Rosneft" 2017-ci ildən İrana yanacaq ixrac etmək niyyətindədir. Bu müddət ərzində "Petrocas Energy Group" şirkəti (onun səhmlərinin 49%-i "Rosneft"ə məxsusdur) Cənubi Qafqaz dəhlizi üzərindən logistik terminal tikəcək.

Bu barədə RBK-ya "Petrocas Energy Group"un baş direktoru Vano Nakaidze bildirib. İnformasiyanı şirkətin majoritar (51%) səhmdarı olan David Yakobaşvili də təsdiqləyib. "Petrocas Energy Group" benzin və dizel yanacağını İranın Neka və Ənzəli limanlarına ixrac edəcək. İxrac şirkətin Gürcüstanın Poti limanındakı neft terminalından həyata keçiriləcək. V. Nakaidze bildirib ki, Poti terminalının illik ötürücülük qabiliyyəti 3 mln. tondur. Hazırda o 1-1,5 mln. tonluq yüklənib. Terminal üzərindən Ermənistana, Azərbaycana və Gürcüstana əlvan neft məhsullarının ixracı həyata keçirilir. TOP-menecer bildirir ki, İrana yanacaq nəqli Azərbaycanın dəmir yolları üzərindən həyata keçiriləcək: "Dəmir yolu ilə limanlara, o cümlədən Bakının limanlarına çatdırılan yanacaq buradan İrana tankerlərlə yola salınacaq". Yakobaşvili qeyd edib ki, İran bazarına çıxmaq üçün il ərzində minimum 1 milyon ton benzin ixrac etmək lazımdır. Şirkət terminallarını genişləndirmək, yeni dəmir yolu vaqonları və tankerlər almaq niyyətindədir. Bunun üçün təxminən 100-200 milyon dollar arası vəsait lazımdır ki, şirkət bu vəsaiti öz hesabına təmin edə bilər. Nakaidze bildirib ki, İran bazarına 2017-ci ildə çıxmaq planlaşdırılır.

Poti limanına 3 milyon ton neft məhsulu çatdırılacaq ki, bunun da 1 milyon tonu İrana ixrac olunacaq. Qalan 2 milyon ton Türkmənistan və Qazaxıstandan alınaraq Avropaya ixrac ediləcək. 1 milyon tonun təxminən 500 min tonunu "Rosneft" təmin edəcək. "Bu işlər elədir ki, İrandakı siyasi vəziyyətdən, ölkələr arasındakı münasibətdən çox asılıdır. Ona görə də dəqiq tarix söyləmək çox çətindir. Bizim ən böyük istəyimizdən biri İranda logistik terminal inşa etməkdir. Cənub Qafqaz dəhlizi yaranandan sonra "Rosneft" İran bazarına öz məhsullarını sata biləcək. Qazaxıstan və Türkmənistanın da bu dəhlizdən istifadəsi planlaşdırılır" - deyə Yakobaşvili bildirib.

RBK bu məsələ ilə bağlı İrandan münasibət öyrənə bilməyib. İranın neft naziri iyun ayının əvvəlində bildirmişdi ki, ölkəsi 3,8 milyon barel neft istehsal edir və onun da 2 milyon tondan çoxunu ixrac edir.

Buna baxmayaraq, İranda benzin çatışmazlığı var. Rəsmi Tehran 2020-ci ilə qədər ölkədə 5 neftayırma zavodu inşa etmək niyyətindədir. Amma bunun üçün hansı maliyyə mənbəyindən istifadə ediləcəyi bəlli deyil. "Bloomberg" yazır ki, təkcə mövcud zavodların modernləşməsinə 14 milyard dollar lazımdır. Yakobaşvili İranın bu müddət ərzində zavod inşasına bu qədər vəsait cəlb edə biləcəyinə inanmadığını qeyd edib.

Onun fikrincə, yeni istiqamət üzrə neft məhsullarını ixracı İranın benzin məsələsindəki problemini müəyyən qədər həll edə bilər.

A. Miriyev

Dəniz sərhədlərinə nəzarətin gücləndirilməsi üçün yeni texnologiyalar tətbiq olunacaq

Kosmos texnologiyası üzrə italiyalı eskpertlər Aralıq dənizində nəzarətin gücləndirilməsi üçün xüsusi layihə təqdim ediblər.

İtaliya Kosmos Agentliyi (İKA) tərəfindən reallaşdırılan "CLOSEYE" layihəsi Avropa İttifaqının xüsusilə cənub dəniz sərhədlərinə nəzarətin və fövqəladə hallara təcili müdaxilələrin daha təkmil həyata keçirilməsi üçün innovativ sistemin tətbiqini nəzərdə tutur.

Layihə çərçivəsində istifadə olunan "Cosmo SkyMed" yeri müşahidə sistemi hadisə yerindən şəkillər toplayır. "Athena-Fidus" peyki isə istənilən dəniz nəqliyyat vasitəsini tanımaq xüsusiyyətinə malikdir. Bu, xüsusilə qeyri-qanuni miqrasiya və məhsulların qanunsuz dövriyyəsi zamanı müdaxilə üçün yararlı ola bilər.

İKA-nın prezidenti Roberto Battiston layihənin önəmli nailiyyət olduğunu vurğulayıb. O, bildirib ki, Avropada miqrasiya sahəsində müşahidə olunan fövqəladə vəziyyətin xüsusi nəzarətə götürülməsi, bu istiqamətdə baş verən hadisələrə vaxtında müdaxilə edilməsi və profilaktik tədbirlərin həyata keçirilməsi üçün bu cür təkmilləşdirilmiş texnologiyanın istifadəsi vacibdir.

11 iyul - Ümumdünya Əhali Günü idi

11iyul - Ümumdünya Əhali Günü 1989-cu ildə BMT-nin Əhali Fondu tərəfindən təsis olunub. Məqsəd dünya əhalisinin problemlərinə ictimaiyyətin diqqətini yönəltmək və ümumi inkişafa nail olmaqdır.

Ölkəmizdə əhalinin problemləri daim diqqət mərkəzindədir. Bu sahədə dövlət siyasətinin əsas məqsədi demoqrafik proseslərdə yaranmış neqativ meyilləri aradan qaldırmaqla ölkənin inkişaf strategiyasına uyğun olaraq əhalinin kəmiyyət-keyfiyyət artımını təmin etməkdir. Prezident İlham Əliyevin 2006-cı il 25 iyul tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasının Dövlət Miqrasiya Proqramı" təsdiq edilib. Həmin proqram çərçivəsində dövlət başçısının 2007-ci il 19 mart tarixli Fərmanına əsasən Dövlət Miqrasiya Xidməti yaradılıb. Eyni zamanda, 2006-cı il dekabrın 28-də "İnsan Hüquqlarının Müdafiəsi üzrə Milli Fəaliyyət Planı" təsdiq edilib.

İlin əvvəlindən Azərbaycan əhalisinin sayı 33,6 min nəfər və ya 0,3 faiz artaraq 9 milyon 739,2 min nəfərə çatıb. Əhalinin sıxlığı bir kvadratkilometrə 112 nəfər olub. Ölkə əhalisinin 53,1 faizi şəhərlərdə, 46,9 faizi kəndlərdə yaşayır. Hazırda hər 1000 kişiyə 1007 qadın düşür.

Qeyd edək ki, 2016-cı ilin axırında Yer kürəsi əhalisinin sayı təxminən 7,3 milyard nəfər təşkil edəcək. Bir il ərzində dünya əhalisinin sayı 78 milyon, yaxud 1,08 faiz artıb. Dünyanın ən çox əhalisi olan ölkəsi Çindir. Çində 1,367 milyard insan yaşayır. İkinci yerdə isə 1,252 milyard nəfərlə Hindistan qərarlaşıb. ABŞ, İndoneziya, Braziliya, Pakistan, Nigeriya, Banqladeş əhalisinin sayına görə növbəti pillələrdə yer alıblar. Rusiya 142,423 milyon nəfərlə 9-cu yeri tutur. Yaponiya isə sırada 10-cu yerdədir.

Şəhid limançıların xatirəsinə həsr olunmuş abidə ucaldılacaq

Bakı Limanı Əsas yük terminalında Qarabağ döyüşlərində Vətənin azadlığı uğrunda canını qurban vermiş limançı şəhidlərin xatirəsinə həsr olunmuş abidə ucaltmaq niyyətindədir.

Bu məqsədlə Bakı Limanı heykəltəraşlar və həvəskar yaradıcı şəxslər üçün müsabiqə elan edib.

"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-nin mətbuat xidmətindən bildirilib ki, müsabiqədə bütün peşəkar və həvəskar yaradıcı şəxslər iştirak edə bilərlər. İştirakçıların eskizlərini peşəkar və tanınmış heykəltəraşlardan ibarət münsiflər heyəti qiymətləndirəcək və qaliblər müəyyən olunacaq. Abidənin ucaldılması üçün forma və ya dizaynla bağlı təklif və eskizlərin bölüşdürülməsi təklif olunur.

Qeyd edək ki, monumentin hazırlanması üçün material, ölçü və miqyas barədə dəqiq bir tələb yoxdur. Hər bir iştirakçı öz versiyasını göndərə bilər.

O illərdə "Dəniz" nədən yazırdı

(Nöqtəsinə, vergülünə dəymədən)

Keçən ilki səhvlərə yol verilməyəcək

1933-34-cü il qış gəmi təmirində keçən illərə nisbətən dəyər və keyfiyyət əlamətlərinə daha artıq diqqət veriləcəkdir. Bu il keçən ildə buraxılan səhvlərin təkrar edilməsinə yol verməmək üçün illik plan kvartal, ay və hətta günlərə bölünmüşdür.

Bunun vasitəsilə gündəlik işin nədən ibarət olması və hansı sahədə rəhbərliyi artırmaq lazım gəldiyini daha aydın bilmək mümkün olacaqdır.

Hal-hazırda təmir aparmaq və maliyyə planını həyata keçirmək üçün 225 işçi lazımdır. Bunun üçün də vaxtında hazırlıq aparılmaqdadır.

Keçən il gəmilərin təmir edilməsi üçün 54 gün vaxt sərf edilirdi. Bəzən də bu müddət ayrı-ayrı sexlər və şəxslər tərəfindən yubadılırdı. Lakin bu il bu kibi hallara son qoyulmuş və gəmilər 34 gün müddətində təmir edilib istismara buraxılacaqdır.

Defeqt cədvəllərinin düzgün tərtib edilməsi üçün ŞTD texniki şöbəsinə lazımı göstəriş verilmişdirki, nəticədə qış gəmi təmiri hesabına olaraq təmir edilən "KRASNAYA ARMİYA", "QAŞEN" və "ROZA LUQSENBURQ" gəmiləri vaxtından 5-6 gün əvvəl istismara buraxılmışdır.

"Qaspi bolşeviki" qəzeti, № 103(141), 3 oktyabr 1933-cü il

Material və işçi qüvvəsi tezliklə əldə edilməlidir

Bu ilki qış gəmi təmiri noyabr ayının 25-dən başlayacaqdır. Bu müddətdə 28 neft donanması gəmiləri təmir ediləcəkdir. Materialın olmaması işdə kəsirin əmələ gəlməsinə səbəb olacağı indidən aşkar edilməkdədir. Beləki, kabelin olmamasından elektrik qaynaqçıların 12 matoru işsiz qalmış, beləliklə təmir ediləcək 18-dən artıq matorun təmir müddəti yubadılmaqdadır. Neft gəmilərinin təmiri üçün 540 ton səthi dəmir lazım olduğu halda zavod bu miqdarın yalnız 80 tonunu ala bilmişdir. Tüstü turbası bir ədəd belə olsun əldə edilməmişdir.

"Qaspi bolşeviki" qəzeti, № 103(141), 3 oktyabr 1933-cü il

Texminimum yoxlanmasını verdilər

Avqustun 15-də "SOVET" gəmisi aşağı komanda üzvlərinin texminimum buraxılışı olmuşdur.

Bu buraxılışda 5 nəfər öz texminimum yoxlamasını vermişdir. Hal-hazırda bunlar təcrübəyə buraxılmışlar. Kaçaqarlar qazanın işlədilməsinə, yanacağın qənaət edilməsinə artıq diqqət vermədədirlər.

MITUXIN,
"SOVET" gəmisi komandası,
"Qaspi bolşeviki" qəzeti,
№ 103(141), 3 oktyabr 1933-cü il

İşçilərin mədəni-məişəti pozulur

Bakı birləşmiş gəmi təmirat zavodları direktorunun qərarına görə gecə saat 12-dən sonra zavod içərisinə bir nəfər də olsun işçi buraxılmır. Bu qərar zavod işçilərinin və təmirə dayanan gəmi ekipajlarının mədəni-məişət halını pozur. Beləki, bütün tamaşa müəssisələri gecə saat 12-yə qədər işləyir.

Belə olduqda işçi və ekipajçıların kino və teatrlardan istifadə edə bilməyəcəkləri şübhəsizdir.

Zavod idarələri bu barədə lazımı təşəbbüsdə bulunmalıdırlar.

Nırnenqo.
"Qaspi bolşeviki" qəzeti, № 103(141), 3 oktyabr 1933-cü il

Müqəssirlər cəzalandı

Sentyabrın 26-da yükləmə zamanı liman işçilərinin 14-cü qrupunda çalışan briqadir Hüseyn Şahbazov başda olmaq üzrə qruppa üzvülərindən Qulam Dadaş, Hüseynov Novruz, Rəzaq Ağa Əli oğlu, Əjdər İsa oğlu, Novruz Abbas oğlu, Qasım Rüstəm oğlu, İsmayıl İsmayıl oğlu, Nusər Feyzulla oğlu və İsrail Əmrəli oğlu 60 çift Torqsin corabını oğurlamaları aşkar edilmişdir. Yoxlama zamanı briqadir Hüseyn Şahbazovun evindən 3 çift qaloş, Rəzaq Ağa Əli oğlundan 7 metr çit və bir baş şalı, İsmayıl İsmayıl oğlundan 14 metr çit və başqalarından sap tapılmışdır.

Sosializm əmlakına xəyanətlə baxanların oktyabrın 1-də məhkəməsi olmuşdur. Məhkəmə Bakı xalq məhkəməsinin səyyar briqadası prokuror Cəfərzadə, xalq iclasçısı Rəcəbov və Məhəmmədovun iştirakı ilə keçirilmişdir.

Müqəssirlərin hamısı öz təqsirlərini boyunlarına almışlar.

Beləliklə səyyar məhkəmə müqəssirlərin 9-na 5 il həbs cəzası kəsməklə səsdən məhrum etmiş, müqəssir Qasım Rüstəm oğlunun 15 yaşı olduğunu nəzərə alaraq onun cəzasını azaltmış və məcburi işə göndərməklə aldığı maaşının 15 faizinin saxlanmasını qərara almışdır.

"Qaspi bolşeviki" qəzeti, № 103(141), 3 oktyabr 1933-cü il

Najidenov işdən götürüldü

Şimal xətti üzrə taxıl daşıyan quru yük donanması gəmilərinin ekipajçılarını "SUXOFLOTES" QİQ lazımı qədər təchiz etməmişdir. Maxac – Qala və Qrasnavodskidə ərzaq əldə etmək üçün QİQ-nin bu limanlarda xüsusi məntəqələri olmamışdır.

QİQ idarəsi müdiri HACIBEKJANS ərzaqın Qrasnovodski limanına göndərməsində özünü təmizliyə çıxararaq, bir sıra obyektiv səbəbləri irəli sürərək, göstərir ki, idarəyə Qrasnovodskidə necə və hansı gəmilərin olduğu vaxtında məlum edilməyir.

Beləki, sentyabr ayında Qrasnovodskidə 4 gəmi olduğu halda QİQ 16 gəmi ekipajı üçün ət göndərmiş, əti alan məntəqə müdürü onu saxlamaq üçün soyuducu qabın olmadığını nəzərə alıb, 4 gəmi ekipajına "nə qədər ət lazımdır aparın" deyə təklif etmişdir. Komanda isə ətin hamısını almadığından göndərilən ət su nəqliyyatı ilə əlaqəsi olmayan xüsusi şəxslərə satılmışdır.

Buğda daşınması ilə məşğul olan komanda üzvləri meyvədən dəxi təchiz edilməmişdir. Pomidor, alma, qarpız və qeyri meyvələr başqa şəxslərə satılmışdır.

Sentyabrın 19-da NAJİDENOV Qrasnovodskyə bir boçka bitki yağı göndərməli idi. Yağ Bakport ambarına, dublikat isə Qrasnovodskiyə göndərilmişdir. Qrasnovodskiyə göndəriləcək yağ, sentyabrın 28-nə qədər sqladda qalmışdır.

Nəticədə komanda üzvlərinin təchizatını pozmaqla məşğul olan NAJDENOVUN işdən götürülməsini Quru yük donanması firqə birosu qərara almışdır.

Firqə komitəsinin bu qərarı bütün "SUXOFLOTES" QİQ-nin işçiləri arasında dərindən təhlil edilməlidir.

"Qaspi bolşeviki" qəzeti, № 104(142), 4 oktyabr 1933-cü il

İşçi təchizatını pozanları məsuliyyətə

Neft məhsulu və quru yük daşınması uğrunda mübarizə edən Qaspi bəhriyyəlilərini kifayət qədər ərzaq cəhətcə təchiz etmək məsələsində bir sıra operativ idarələr quyruqda sürünürlər.

İşçilərin ərzaqı 10 günlərlə Qasnıc-ın mərkəzi ambarında yatıb qalır. Ambar müdüriyyəti tərəfindən dəfələrlə xəbər verilməsinə baxmayaraq, "nəqliyyat yoxdur, hələ bizə indi bu mallar lazım deyil" kimi yersiz sözlər kooperativ idarələri tərəfindən irəli sürülür. Məsələn: İşçilər üçün alınan qrupanın aparılması üçün ambar müdüriyyəti sentyabr ayının 20-də "Neftteflotes" QİQ idarəsinə xəbər verir. Lakin kooperativ idarəsi qrupuna 12 gün ambarda saxlatdırdıqdan sonra oktyabrın 2-də göndərir.

"Suxoflotes" QİQ idarəsi dəxi 12 gündən sonra 6,5 ton qrupanın yalnız 2 tonunu aparır. Qənd, çay və sənaye malları da aylarla QASNİCİN ambarında qalır və beləliklə işçilər öz normalarını vaxtında ala bilmirlər.

İşçi normasını yubadanlar tezliklə məsuliyyətə alınmalıdır.

ƏLİYEV ƏLƏSGƏR,
ƏLƏKBƏROV.
"Qaspi bolşeviki" qəzeti, № 106(144), 6 oktyabr 1933-cü il

Dönüş yaradılmışdır

Oktyabr ayında quru yük donanması quru yük daşınmasında qəti dönüş yaratmağa başlamışdır. Planın ödənilməsi üçün bütün imkanlardan istifadə edilməkdədir. Oktyabrın 10 günü müddətində Maxaç-Qaladan Qrasnovodskiyə yeni məhsuldan 15663 ton taxıl daşımaqda 10 günlük tapşırıq 139,1 faiz, aylıq plan isə 44,9 faiz ödənilmişdir.

Maxaç-Qalaya gəmilərin daha tez göndərilməsi şəraiti yaradılmış və liman təşkilatları buna ciddi fikir verməkdədir. Məsələn: "ORLENOQ" gəmisi 45 saat əvəzinə 20 saata, "MEREDYAN" 42 saat əvəzinə 28 saata, "EQVATOR" 39 əvəzinə 12, "QRASNAYA ZNAMYA" 41 saat əvəzinə 16 saata və "POLUYAN" 28 saat əvəzinə 12 saata yüklənib göndərilmişdir.

10 gün müddətində Astraxandan 9052 qub metr meşə materialı daşınmışdır ki, bu da aylıq planın 68,9 faizini təşkil edir. Lakin bu demək deyil ki, meşə materiallarının daşınmasında kökündən dəyişmə əmələ gəlmişdir. Hazırda meşə materialının belə sürətlə daşınması sentyabr kəsirinin hesabınadır. Oktyabr ayında bunlardan əlavə 8500 ton sulfat daşınmalıdır ki, 10 gün müddətində Qara-Boqaz körfəzindən bu miqdarın 2803 tonu daşınmışdır.

"Qaspi bolşeviki" qəzeti, № 113(151), 15 oktyabr 1933-cü il

Təmiri yubadan səbəbləri tezliklə aradan qaldırın

"YUPİTER" gəmisinin qazanının təmizlənməsi üçün oktyabrın 9-da "ZAQFEDERASİYA" zavoduna gətirilir. Lakin mexanik QOSATKİN maşın qomandasını yerləşdirmək, təmirə hazırlıq aparmaq və nəhayət gəmini təmirdən tez buraxılmasını təmin etmək əvəzinə işi başlı-başına buraxaraq 2 sutka gəmiyə gəlməmiş və neft daşınması işinin ağır vaxtında sərxoşluqla məşğul olmağa başlamışdır.

QOSATKİN sərxoş olduğu üçün gözətçi tərəfindən zavoda buraxılmamış və bunun ona baha başa gələcəyini düşünərək özünü xəstəlik vərəqəsi ilə təmin etmişdir. Bundan başqa işə başçılıq etmək və briqadaları yerləşdirmək əvəzinə mexanikin birinci müavini QAÇQALDA və 2-ci müavini BELEDSKİ (firqə üzvü) maşın qomandasını dağıtmış və gəmini tamamilə adamsız buraxmışlardır. Gəmi qapitanı isə gəmini mexanik ilə təmin etmək üçün heç bir tədbir görməmişdir. O, mexanikin harada olduğunu və nə işlə məşğul olduğunu belə bilməmişdir.

Bütün bunlar qazanın təmirinə səhlənkarlıqla yanaşmaq və neft daşınmasına zərbə vurmaqdan başqa bir şey deyildir.

Bu hadisə tək "YUPİTER" gəmisində deyil, "AMERİQA" gəmisində də baş vermişdir. "AMERİQA" gəmisi mexaniki PRONİN qazanın təcili qaldırılması işi əvəzinə gəmini qomandasız qoymuş ki, nəticədə gəmi 5 saatdan artıq prostoy etmişdir. "YUPİTER" gəmisi mexaniki QOSATKİN mühakimə ediləcək, 1-ci və 2-ci müavinləri QAÇQALDA və BELEDSKİ isə həmkarlar ittifaqından xaric ediləcəklərdir.

"YUPİTER" və "AMERİQA" gəmilərin vaxtında təmir edilməyib üçün gəmi mexanik şöbəsi naçalniki ŞESTAQOVA göstəriş verilmişdir.

QASPİ bəhriyyələri neft daşınması işinə zərbə vuran sərxoş, ziyankar və səhlənkarlara qarşı qəti tədbirlər görməli, daşınma planının artıqlaması ilə ödənilməsi uğrunda çarpışmalıdırlar.

"Qaspi bolşeviki" qəzeti, № 113(151), 15 oktyabr 1933-cü il

Pambıq və taxıl uğrunda da təmirat kibi mübarizə etməli

SƏLYAN rayonunun "FRUNZE" adına qolxozu "Vanostrua"gəmi təmirat emalatxanasının hamiliyindədir. Emalatxana tərəfindən buraya 3 nəfərdən ibarət bir briqada göndərilmişdir. Bu briqada sentyabrın axırlarına qədər qolxoz qalaraq, firqə kütləvi işlərin canlandırılmasına çalışmaqla pambıq toplanışı işində dəxi ciddiyyətlə iştirak etmişdir. Bu briqadanın ciddiyyəti sayəsində qolxozun trakdor ləvazimatına lazım olan kənd təsərrüfat inventar təmin edilmişdir.

Hazırda zavod qolxoz üzvülərindən bir neçəsini emalatxanaya gətirərək onlardan ixtisasçı işçi (dülgər, dəmirçi və çilingər) hazırlayaraq qolxoza göndərəcəkdir.

Kənd ilə şəhər rabitəsi cəmiyyətinin istər qolxozda, istərsədə emalatxanada rəhbərliyi olduqca zəifdir. Rəhbərlik bir yana dursun, cəmiyyət hələ bu vaxta qədər nə qədər üzvü olduğu və üzvülük haqqının vaxtında toplanıb və toplanılmadığını bilmir.

"VANO STRUA" təşkilatları hamilikdə olan qolxozlar üzərində öz yardım və rəhbərliklərini canlandırmaqla, pambıq və taxıl məhsulu uğrunda da təmirat kibi mübarizə etməlidirlər.

"Qaspi bolşeviki" qəzeti, № 116 (154), 18 oktyabr 1933-cü il

Qasparın məsul işçilərini iclaslara çağırmaq haqqında AQ (b) F BQ və BBQ-nın 17 oktyabr 1933-cü il tarixli qərarı

BQ və BBQ qeyd edirlər ki, neft daşımasının qızğın zamanında Qasparın məsul işçiləri çoxlu işçilərlə işdən avara edilirlər.

BQ və BBQ təklif edilər ki, naviqasiya zamanı, noyabrın 20-nə qədər Qasparın məsul rəhbərlərinin, bilxassə Maqsimov, Qribanov, Sarokin, Bruk və Bojevets yoldaşların, AQ (b) F BBQ təsdiqi olmadan, hər hansı bir iclasa olursa olsun çağrılması qədəğan edilsin.

BQ və BBQ; neft vuran gəmi qapitanlarının operativ işdən avara qoyulmasını olduqca yol verilməz sayır.

AQ (b) F BQ və BBQ
"Qaspi bolşeviki" qəzeti, № 117 (155), 20 oktyabr 1933-cü il

"Vano Strua" hamilik işlərində ön sıralarda gedir

"Vano Strua" gəmi təmirat emalatxanasının hamiliyində olan Qaspi su seqsiyyasının, Xudat sovxozuna emalatxana tərəfindən lazımı köməklik göstərilmədədir.

Emalatxana tərəfindən 15 ədəd çuqun peç, 1500 kiloqram mismar və pamidor, yerpələng və sair meyvə - göyərti üçün yeşiklər hazırlanıb göndərilmişdir.

Becərmə və alaq qampaniyası vaxtında emalatxanın yerli qomitəsi sədri ilə birlikdə 50 nəfər məzuniyyətçi işçilər öz məzuniyyətlərini sovxozda çalışaraq sovxoz işçiləri arasında firqə kütləvi işlərin canlandırılmasına çalışmışlar.

Sovxozda proletar rəhbərliyinin daha da möhkəmləndirilməsi üçün emalatxanada, traqtor hissələri və kənd təsərrüfatına lazım olan maşınlar təmir edilərək göndərilmişdir.

Bu sovxoz becərmə alaq məhsul toplanışı qampaniyasını ən zərbəli bir surətdə qurtardığı üçün Qaspi hevzə qomitəsi yermeşə ittifaqı və Qaspi su seqsiyasının keçici qızıl bayrağı ilə mükafatlandırılmışdır.

Əli Kəbiri.
"Qaspi bolşeviki" qəzeti, № 117 (155), 20 oktyabr 1933-cü il

"Volodarski" gəmisi kəsir içərisində

Neft donanmasının "VOLODARSKİ" gəmisi plan üzrə oktyabr ayında MAXAC-QALAYA buqsir ilə 8 reis etməlidir. Lakin oktyabrın 21-nə kibi ancaq 4 reis etmişdir. Bununda 3 reisini buqsir ilə getmişdir.

Gəmi Bakıdan Maxac-Qalaya 43 saata, 1-ci reisini 54 saat getmiş, bu reisdə 11 saat prostoj etmişdir ki, buna da havanın pis olması səbəb olmuşdur.

Bundan başqa gəmi MAXAC-QALADA boşaldırıldıqdan sonra "AFRİKA" şalandasını gözləməsi üçün 4 saat 40 dəqiqə prostoj etmişdir. Şalandasında 4 saat gecikdirilməsi, neft boşaltmaq üçün verilən barqaz nasosunun zəif olmasından əmələ gəlmişdir.

Gəmi bu nöqsanları 2-ci reisdə yenə təkrar edərək, (oktyabrın 5-də) 3 saat şalandanın doldurulmasında, oktyabrın 8-də Maxac-Qalada şalandanın boşaldılmasında 9 saat və 3-cü reisində yenə Bakıda şalandanın doldurulması üçün 2 saat prostoj etmişdir. Bundan əlavə, yenə ayın 13-də növbə gözləmədə bir saat 25 dəqiqə və 19-da neft boşaltmaq üçün Maxac-Qalada şlanq olmadığından 3 saat prostoj etmişdir.

Gəmi müdüriyyəti dəfələrlə neft donanmasından nasoslar üçün dəri tələb etmişsədə, bu dərilərin verilməməsi və nasosların vaxtında təmir edilməməsi nəticəsində Maxac-Qalada 2 saat 15 dəqiqə prostoj etmişdir.

Gəmi etdiyi bütün bu noqsanların aradan qaldırılması üçün öz əməli təklifləri neft donanması qarşısında qoymuşsada, lakin bu qədər prostoj saatların əmələ gəlməsi səbəblərinin kökünü qırmaq işində neft donanması heç bir iş görməmişdir.

"Qaspi bolşeviki" qəzeti, № 121 (159), 24 oktyabr 1933-cü il

Təmirə dayanan gəmilər lazımi materyal ilə təmin edilməli

"VANO STRUA" gəmi təmirat emalatxanasında qış gəmi təmirat işləri olqun haldadır. Gəmilərin təminatı üçün 20 ton 5 millimetro, 10 ton 6 millimetro, 10 ton 4 millimetro 50-50, 60-65 künclü dəmirinə qaz turbaları lazım olduğu halda bu vəqtə qadar tədarük edilməmişdir. Elektrik toqlarından istifadə üçün mis qırıntıları, armaturlar, elektrik cərəyanı nəql edən tellər, kükürt və başqa turşuların emalatxanada olmaması elektrik mexaniki işlərin gedişini dayandırmaqdadır.

Bu vaqta qədər ŞTD oylədə yer qazıyan gəmilər idarəsi tərəfindən təmirə ehtiyacı olan gəmilər emalatxanaya plansız olaraq verildiyindən, emalatxana təmirat planı pozulmasına səbəb olur və iş prosesində böyük əngəllər törədirdi.

Bunun qarşısını almaqdan ötəri indidən gəmi təmiratı 34-cü il 1-ci qvartal planı yer qazıyan gəmilər idarəsi tərəfindən alınmışdır ki, bunun da müqavilənaməsi tez bir zamanda bağlanacaqdır.

Hal hazırda emalatxanada 24 təsərrüfat briqadası təşkil olunmuşdur. Briqadalar arasında möhkəm iş mübadiləsini artırmaqdan ötəri briqada sos yarış müqavilənaməsi bağlanmışdır.

Bundan əlavə tək-tək briqadaların iş fəaliyyətini keyfiyyətcə yaxşılaşdırmaq üçün mühəndis işçilərdən onların üzərində rəhbərlər təşkil olunmuşdur.

Astraxan gəmi təmirat zavodu tərəfindən çaqırılmış sosializm yarışını bu emalatxana böyük ruh yüksəkliyi ilə qəbul edərək, "Zaqfederasiya" gəmi təmirat zavodunun işdə möhkəm keyfiyyət uğrunda mübarizə üçün sosializm yarışına çaqrımışdır.

Bütün emalatxanada olan dəzgahlar müayinədən keçirilmiş va pasportlaşma işləri qurtarmışdır.

Prostoya yol verməmək üçün emalatxana Qaryaqin rayonu MTS-dən 1500 bocqanın təmir olunması işinə başlamışdır ki, bu yollarla işçi prostoyu ilə mübarizə aparılmaqdadır.

"Qaspi bolşeviki" qəzeti, № 157 (195), 10 dekabr 1933-cü il

2016-CI İLİN ƏN YAXŞI OFİS BİNASI

İnşaat sahəsində beynəlxalq nüfuza malik "Engineering News Record" (ENR) jurnalı 2016-cı il üçün "Ən yaxşı qlobal layihələr" müsabiqəsinin qaliblərini elan edib. Müsabiqəyə "Thornton Tomasetti" şirkəti tərəfindən təqdim edilmiş "SOCAR Tower" "Ofis binası" nominasiyasında qalib gəlib.

SOCAR-ın mətbuat xidmətindən bildirilib ki, "ENR" jurnalının təşkil etdiyi müsabiqənin əsas məqsədi dizayn və tikinti sahəsində həyata keçirilən ən görkəmli layihələri müəyyənləşdirmək, onların arxasında duran komandaları mükafatlandırmaqdır. Dünya miqyasında tanınmış ekspertlərdən ibarət münsiflər heyəti 15 ölkədən 23 layihə seçib, onları təhlükəsizlik, innovasiya, dizayn və inşaat üstünlükləri parametrləri üzrə təhlil edib, qlobal layihə komandalarının əməkdaşlığına xüsusi diqqət yetirib. Müsabiqəyə hava limanları, körpü və tunellər, inzibati binalar, mədəniyyət, təhsil, səhiyyə, hərbi, sənaye əhəmiyyətli tikililər, idman və su qurğuları və digər obyektlər təqdim olunub. Münsiflər heyəti tərəfindən layihələri həyata keçirən şirkətlərin çətinliklərin öhdəsindən necə gəlməsi, tikililərin yerli ictimaiyyət və ya tikinti sənayesi üçün əhəmiyyəti də nəzərə alınıb. Müsabiqənin qalibləri haqqında ətraflı məlumat "ENR" jurnalının sentyabrın 19-da dərc ediləcək buraxılışında veriləcək. Qaliblərə mükafatlar oktyabrın 11-də Nyu-Yorkdakı "Hilton Midtown" otelində keçiriləcək təntənəli mərasimdə təqdim olunacaq.

SOCAR-ın yeni inzibati binası – "SOCAR Tower" Koreya Respublikasının "Heerim Architects & Planners Co. Ltd" şirkəti tərəfindən təqdim olunan "Külək-alov" konsepsiyası əsasında tikilib. Tikinti işləri 2010-cu ildə başlanılıb, təxminən beş il ərzində paytaxtın ən gözəl memarlıq nümunələrindən biri ərsəyə gəlib. "SOCAR Tower" beynəlxalq standartlara tam cavab verir, binanın təhlükəsizlik və texniki sistemlərinin idarə edilməsi vahid mərkəzdən həyata keçirilir.

ƏMİR TEYMURUN 700 İL ƏVVƏL TİKDİRDİYİ KÖRPÜ YENİDƏN QURULUB

Özbəkistan Prezidenti İslam Kərimov ölkənin Qaşqadərya vilayətində böyük sərkərdə və dövlət xadimi Əmir Teymurun 700 il əvvəl tikdirdiyi körpünün yenidənqurmadan sonrakı vəziyyəti ilə tanış olub.

Böyük İpək Yolunun keçdiyi Karşi şəhərindəki Kaşkadərya çayı üzərində tikilmiş körpünün ətrafında salınan və 24 hektar ərazini əhatə edən tarixi bağ da bərpa olunub. Çay boyu sağ və sol ərazilərdə yaşıllıqlar salınıb, istirahət üçün digər infrastruktur yaradılıb. Orta əsrlərdə bu ərazidən Hindistanı və İranı Avropa ilə birləşdirən karvan yolu keçib.

Macar alimi və səyahətçisi German Vamberi yazır ki, 1860-cı illərdə Karşi şəhərində 10 karvansara, böyük bazar və istirahət etmək üçün səfalı bağ olub.

Prezident İslam Kərimov vilayətdə tikilən digər obyektlərlə də tanış olub.

Qulu Kəngərli

ÇİNLİ RAHİB SUYUN ÜZƏRİNDƏ 125 METR MƏSAFƏNİ QAÇMAĞI BACARIB

Çinin Cənubi Şaolin məbədinin rahibi Şi Liliang suyun üstündə yerimək haqqında Bibliyadakı rəvayəti reallaşdırıb.

Rusiyanın vesti.ru saytı xəbər verir ki, çinli rahib su hövzəsinin səthində üzən 200 faner lövhədən istifadə etməklə 125 metr qaçmağı bacarıb. O, qaçışın sürəti ilə tarazlığın saxlanmasının ahəngi nəticəsində suda batmamağa nail olub.

Şi Liliang təcrübəsinə 8 il əvvəl başlayıb və su üzərində yalnız 18 metr qaçıb. O vaxtdan rahib şəxsi rekordunu hər il yeniləyir. O, ötən il də bu üsulla 120 metr qaçıb. Bu dəfə rekordçu rahib yalnız üçüncü cəhddə nəticəni yaxşılaşdırmağı bacarıb.

Hər il 250 min insan iqlim dəyişikliyinin qurbanı olacaq

2030-cu ilədək iqlim dəyişikliyi hər il 250 min nəfərin ölümünə səbəb olacaq. Əsas ölüm səbəbləri malyariya, ishal, günvurma və aclıq olacaq.

Bu fikirlər iqlim dəyişikliyinin insan səhhətinə təsiri ilə bağlı Dünya Səhiyyə Təşkilatının Parisdə keçirilən konfransında səslənib.

İstiləşmə və rütubətin artması xəstəlik yayan həşəratların çoxalıb yayılmasına gətirib çıxaracaq. Həddindən artıq istilərdən və quraqlıqdan çoxlu sayda insan ziyan çəkəcək. Havanın çirklənməsi nəticəsində bitkilərin çiçəklənmə dövrü uzanacaq ki, bu da astma və allergiyadan əziyyət çəkən insanların sayını artıracaq. İstiləşmə və daşqınlar su mənbələrini çirkləndirəcək. Nəticədə çirkli sudan istifadə edənlər müxtəlif xəstəliklər tapacaqlar.

ÜZƏN STADİONDA DÜNYA ÇEMPİONATI KEÇİRİLƏCƏK

Dünyada ilk dəfə olaraq "Stadiumconcept" memarlıq studiyasının mütəxəssisləri tərəfindən üzən stadionun layihəsi hazırlanıb.

İdman qurğusu 2022-ci ildə keçiriləcək futbol üzrə dünya çempionatı üçün nəzərdə tutulub.

Üzən stadion dəniz və okeanlarda böyük məsafələr qət edərək planetin istənilən şəhərində mühüm futbol çempionatının keçirilməsində əhəmiyyətli rol oynayacaq.

Layihədə ekoloji problemlər də öz həllini tapıb. Nəhəng üzən stadionun əsas enerji mənbələri su, külək və günəş olacaq. Stadionda yarışları 65 min tamaşaçı izləyə biləcək.

Memarlar sözügedən layihəni idman arxitekturası tarixində maraqlı yenilik kimi dəyərləndirirlər.

Tahir Dadaşov

YARIZARAFAT, YARIGERÇƏK

Bu dünyada nə vaxtsa əzab çəkməyən yoxdur. Amma nədənsə bu, nadir hallarda vicdan əzabı olur.

Pis şeylər həmişə adama "gəl-gəl" deyir.

Qurdu qurd edən qoyunlardır.

Mənim Darvinin nəzəriyyəsi ilə işim yoxdur. Amma əməllərindən bəlli olur ki, ermənilər insan törəmələri deyillər.

Mən ağıllı adamların varlı olmağını istədiyim qədər də, varlı adamların ağıllı olmalarını istəyirəm.

Ən tez gözə çarpan itki insanın yerişini itirməsidir.

Adamın əlinin çörəyə çatması üçün boyu nə qədər olmalıdır?

Gözdə olmasa, adamın "plyus"u nə qədər çox olsa, yaxşıdır.

Ən pis artıq-əskik danışıqdakı artıq-əskikdir.

Yaxşı ki, qanım birinci qrupdur. Nədəsə birinci olmaq da lazımdır.

İsti ölkələrdə çox adamın insafını şaxta harada vurur?

Başqalarının fikrini göydə oxumaq istəyirsənsə, yerdə kitab çox oxu.

Kiçik günah da böyük səhvdən pisdir.

Başqalarının nazı ilə çox oynayan bəzən öz oyununu itirir.

Bişməmiş söz bişməmişlərin ən dözülməzidir.

Ən böyük aldatma insanın özünü aldatmasıdır.

İt gəzdir, söz gəzdirmə.

Bəzən adama elə od qoyurlar ki, bir neçə soyuq qışı keçirməyə bəs edər.

Quş yaxşı şeydir. Amma hər şeyə quş qoymaq olmaz.

Mənim bütün həyatım təəssüflə keçib. Təəssüf!

Hətta yaraşıqlı olmasa da, adamın gərək bir üzü olsun.

Ağlıma heç nə gəlməsə yaxşıdır. Heç olmasa başım ağrımaz.

Gedənin arxasınca danışmağın söz azadlığına nə dəxli?

Hər şey gün kimi aydın olmayan yerdə aydınlığa çıxmaq çətindir.

Başqalarını dərindən tanıya-tanıya özümə hörmətim artır.

Müftə ancaq və ancaq yalan olur.

Səhv həmişə adama gəl-gəl deyir.

Ən yaxşı ağa sözünün ağasıdır.

Dovşanların nə günahı var ki, hər kəs bir güllə ilə həm də iki dövşan vurmaq istəyir?

Bütün borc yiyələri sağlığımı istəsə, neçə əsr yaşayaram.

Mənim üçün adama aşağıdan yuxarı baxanlar da, yuxarıdan aşağı baxanlar da bir bezin qırağıdırlar.

Ayıların oyunundan adətən ən çox armud yiyələri baş açır.

Cızıq nədir ki, ondan çıxan adamın gözləri çox şeyi görmür?!

İt nə qədər çox olsa itaparan şeylər də o qədər çox olar.

Adam var, nəyi qurtarsa da, bəhanəsi qurtarmır.

Hər yalanın arxasında bir məkr dayanır.

Adam bərkə düşəndə bəlkələr çoxalır.

Suyu süzülə-süzülə gələni ən azı su üçün göndərməzlər.

Yanğınsöndürənlər hara baxır? Bazar od tutub yanır.

Adam var zibilin içindədir, adam var zibil – içində.

İplər keyfiyyətsiz olduğu üçün ipiqırıqlar çoxdur?

Aşpaz olmasan da, sözü ağzında bişirəndən sonra çıxart.

Hava çirkləndiyi üçün çox adam yalanla nəfəs alır?

Ən pis oxuyanlar kiminsə qulağına oxuyanlardır.

Torpaq bərk olduğu üçün bəziləri əməllərindən utanıb yerə girmirlər?

Bəziləri başlarında turp əkmək üçün özləri münbit şərait yaradırlar.

Kişi ki, kişiliyə yaraşmayan iş gördü, olur nə? Ay sağ ol, olur sən deyən.

Yalan onu eşitmək istəyənlər üçündür.

Neçə min cahilə bir ağıllı düşür?

Bəziləri dayaz ağılları ilə çox uzağa necə gedirlər?

İşində ol. Allah məni belə yaradıb. Məsləhət bilsəydi, sənin kimi yaradardı.

Mən heç vaxt kökəlməyəcəyəm. O qədər ət tökən var ki...

Var-dövlətim bircə başdı, onu da qayğıdan iki gündən-bir itirirəm.

Qoyunu qurda ən çox çoban tapşırır.

Nə vaxta kimi bizə elə gələcək ki, ermənilərin dəyirmanına su tökənlərin suyunu təkcə "Azərsu" kəsməlidir?

Rasif TAHİROV

DƏNİZ

15 iyul 2016-cı il № 41-44 (9047)

PORTUQALİYA TARİXDƏ İLK DƏFƏ AVROPA ÇEMPİONU ADINI QAZANIB

İyunun 10-da futbol üzrə XV Avropa çempionatının final görüşü keçirilib.

Parisin Sen-Deni rayonunun "Stade de Frans" stadionunda keçirilən Portuqaliya-Fransa matçından əvvəl möhtəşəm şou nümayiş etdirilib.

Daha sonra final görüşü start götürüb.

Portuqaliyanın start heyətində Rui Patrisio, Sedrik, Pepe, Fonte, Qerrero, Renato Sançes, Adrien Silva, Uilyam Karvalyo, Joao Mari, Ronaldo və Nani meydana çıxıb.

Fransa millisinin ilk onbirliyində isə Loris, Sanya, Kosielni, Ümtiti, Evra, Poqba, Matuidi, Sissoko, Qrizman, Paye və Jiru yer alıb.

Matçı ingiltərəli Mark Klattenburqun rəhbərlik etdiyi hakimlər briqadası idarə edib.

Final qarşılaşmasında ilk hissədə hesab açılmayıb. İlk yarıda Fransa millisinin müəyyən ərazi üstünlüyü olsa da bu hesabda əksini tapmayıb.

İlk hissədə ən yadda qalan hadisə isə Portuqaliya yığmasının kapitanının zədələnərək meydanı tərk etməsi olub. Oyunun 25-ci dəqiqəsində Kristiano Ronaldonu Rikardo Quaresma əvəzləyib.

İlk hissədə olduğu kimi, ikinci hissədə də Fransa millisi daha çox hücum edən tərəf olub. Lakin Portuqaliya millisinin qapıçısı Rui Patrisionun inamlı oyunu nəticəsində fransızlar qol vura bilməyiblər. Oyunun sonlarına yaxın isə fransızların heyətində Andre-Pyer Jinyakın vurduğu zərbə qapı dirəyinə dəyib.

Oyunda qalibi müəyyən etmək üçün iki 15 dəqiqədən ibarət əlavə vaxt oynanılıb. İlk 15 dəqiqədə qapılara qol vurulmayıb. İkinci on beş dəqiqəyə Portuqaliya millisi hücumlarla başlayıb. Nəticədə oyunun 109-cu dəqiqəsində Portuqaliya millisinin heyətində Eder fərqlənib. Onun uzaq məsafədən vurduğu zərbə qarşısıalınmaz olub. Qoldan sonra Fransa millisi çox cəhd göstərsə də bu, heç nəyi dəyişməyib. Beləliklə, Portuqaliya yığması tarixində ilk dəfə olaraq Avropa çempionu olub.

Oyundan sonra qalibin mükafatlandırılması mərasimi olub. Gümüş medallar Fransa yığmasının üzvlərinə təqdim edilib. Sonra kürsüyə Portuqaliya millisinin üzvləri çıxıblar. Qızıl medallar və Avropa çempionatını kuboku qalib komandaya təqdim edilib.

Qeyd edək ki, Fransa millisinin üzvü Qrizman altı qolla çempionatın bombardiri olub.

Cüdo üzrə Azərbaycan millisinin "Rio-2016" Olimpiya Oyunları üçün heyəti müəyyənləşib

Rio-de-Janeyro Yay Olimpiya Oyunlarında çıxış edəcək Azərbaycan cüdoçularının heyəti açıqlanıb.

Azərbaycan Cüdo Federasiyasının mətbuat xidmətindən bildirilib ki, baş məşqçi Peter Zayzenbaxer iki çəki dərəcəsində seçimini Beynəlxalq Cüdo Federasiyasının reytinqində daha yüksək mövqedə qərarlaşanların xeyrinə edib. Avstriyalı mütəxəssis Olimpiadaya 60 kiloqram çəki dərəcəsində Orxan Səfərovu, 100 kiloqram çəkidə isə Elmar Qasımovu aparmağı qərara alıb. Nəticədə İlqar Müşkiyev və Elxan Məmmədov dörd illiyin zirvə yarışından kənarda qalıb.

Digər çəkilərdə Azərbaycanı Nicat Şıxəlizadə (66 kq), Rüstəm Orucov (73 kq), Məmmədəli Mehdiyev (90 kq) və Uşangi Kokauri (100 kq-dan yuxarı) təmsil edəcəklər.

Qeyd edək ki, XXXI Yay Olimpiya Oyunlarının proqramına əsasən cüdo yarışları iyulun 6-12-də keçiriləcək.

Qadın voleybolçularımız Avropa Liqası yarışlarının qalibi olublar

İyulun 3-də qadın voleybolçulardan ibarət Azərbaycan millisi Avropa Liqası yarışlarının qalibi olub.

Millimiz turnirin final mərhələsi çərçivəsində Bakı İdman Sarayında Slovakiya yığması ilə qarşılaşıb.

İtaliyalı baş hakim Giorgio Qnaninin idarə etdiyi oyunun ilk seti millimizin 25:15 hesablı üstünlüyü ilə başa çatıb. İkinci setdə də voleybolçularımız fərqlənib lər – 25:22. Üçüncü setdə Azərbaycan voleybolçuları 25:20 hesabı ilə qalib gələrək matçın taleyini həll ediblər. Bununla da görüş Azərbaycan millisinin 3:0 hesablı qələbəsi ilə yekunlaşıb.

Komandalar arasında iyunun 30-da Slovakiyada keçirilən ilk oyunda millimiz 3:1 hesabı ilə qalib gəlmişdi. İki görüşün nəticəsinə görə, Azərbaycan millisi Avropa Liqası yarışlarının qalibi olub. Avropa Liqasının mahiyyətini artırmaq üçün bu ildən birinci yerin sahibi gələn il keçiriləcək dünya Qran-prisinə vəsiqə qazanacaq. Beləliklə millimiz bu vəsiqəni də təmin edib.

Oyundan sonra mükafatlandırma mərasimi keçirilib.

Qızıl medalları millimizin voleybolçularına Azərbaycan Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə və Avropa Voleybol Konfederasiyasının nümayəndəsi Slobadan Miloş təqdim ediblər.

Sonda Azərbaycanın dövlət himni səsləndirilib.

Hazırda millimizin heyətinə gənc oyunçular cəlb olunub. Əsas məqsəd Avropa Liqasının finalına yüksəlmək, gələn il IV İslam Həmrəylik Oyunlarında və paytaxtımızda keçiriləcək Avropa çempionatının final mərhələsində ölkəmizi uğurla təmsil etməkdir.

Lionel Messi və atası 21 aylıq həbs cəzasına məhkum edilib

İspaniyada məhkəmə "Barselona" klubunun argentinalı ulduz futbolçusu Lionel Messini və atası Xorge Messini vergidən yayındıqları üçün 21 aylıq həbs cəzasına məhkum edib. AZƏRTAC "Euronews"a istinadla xəbər verir ki, ölkə qanunlarına görə, Lionel Messi iki ildən az müddətə həbs cəzası aldığı üçün məhkum edilməyəcək.

Qeyd edək ki, məşhur futbolçunun və atasının vergidən yayınmaları ilə əlaqədar məhkəmə prosesi xeyli vaxtdır davam edirdi.

BAŞ REDAKTOR
Rasif İman oğlu
TAHİROV

Ünvanımız:
AZ1003, Bakı şəhəri,
Xanlar küçəsi, 22
TELEFONLARIMIZ:
Baş redaktor
(050) 670-33-76
Redaktor
(070) 252-39-02

Qəzetin təsisçisi:
"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi"
Qapalı Səhmdar Cəmiyyəti

Qəzet "Dəniz" qəzetinin kompyuter mərkəzində yığılmış, səhifələnmiş və "Azərbaycan" nəşriyyatında çap olunmuşdur

Şəhadətnamə: 275
Tiraj: 2000
Sifariş: 1911